# Ermənistan etiraf edib

Düşmən sərhəddə törətdikləri öz təxribatları nəticəsində iki əsgərini itirib



**Ermənistanın Azərbaycanla sərhəddə təxribatı iki erməni hərbçinin ölümünə səbəb olub.**

Bu barədə Ermənistan Müdafiə Nazirliyi bildirib.

Ermənistan Müdafiə Nazirliyindən verilən məlumata əsasən, bundan əlavə, iki erməni hərbiçi də yaralanıb.

# Hərbçilərin pensiyasının yenidən hesablanmasının səbəbi açıqlanıb



**"Hərbi qulluqçuların təminat xərclərinin tərkibində olan əlavələrin hesablanmasında nöqsanlar var idi.**

Həmin əlavələrin yenidən hesablanması nəticəsində 250-dən artıq əmək pensiyaçısının pensiyası yenidən hesablanıb".

Bunu Dövlət Sosial Müdafiə Fondunun Xüsusi Şərtlərlə Təyinat üzrə Mərkəzi Filialının direktoru Şahin Əliyev deyib.

Onun sözlərinə görə, nəticədə pensiya məbləğlərində müəyyən artımlar olub.


№ 5 (5527), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 12 yanvar 2022-ci il (çərşənbə)




# İran Azərbaycanla quru sərhədlərini açıb

Nazir qeyd edib ki, səfər üçün qonşu ölkələrin vətəndaşları PCR testi verməlidir

**İran qonşu ölkələrlə, o cümlədən Azərbaycanla quru sərhədlərini yenidən açıb.**

APA-nın Tehran bürosunun məlumatına görə, bu barədə İranın daxili işlər naziri Əhməd Vahidi məlumat verib. O deyib ki, koronavirusun Omicron ştamına görə 15 gün öncə bağlanan sərhədlər yenidən açılıb və qonşu ölkələrin vətəndaşları İrana gediş-gəliş edə bilər. Nazir qeyd edib ki, İrana səfər üçün qonşu ölkələrin vətəndaşları PCR testi verməlidir.

Əhməd Vahidi bildirib ki, koronavirusun nəzarətə götürüldüyü bəzi ölkələrdən də hava nəqliyyatı ilə İrana səfər məhdudiyyəti aradan qaldırılıb. Lakin bəzi Avropa ölkələri, o cümlədən Britaniya və Fransadan İrana hava nəqliyyatı ilə səfər hələlik qadağandır.

*Qeyd edək ki, COVID-19 infeksiyasının Omicron ştamına yoluxma hallarının artmasına görə ötən il dekabrın 25-də İran Türkiyə, İraq, Əfqanıstan, Azərbaycan, Ermənistan və Pakistanla quru sərhədlərini 15 gün müddətinə bağlayıb. Bu haqda İranın Koronavirusla Mübarizə Qərargahı qərar qəbul edib. Qadağa təhsil və ticarət (biznes) vizası olanlara, iş, müalicə və investisiya sənədləri olanlara şamil olunmayıb.*

*Xatırladaq ki, pandemiya başlayandan bəri İranın Türkmənistanla quru sərhədləri bağlıdır.*




# Bu il Azərbaycana gətiriləcək vaksinlərin sayı açıqlanıb

**Təsdiq olunmuş müqaviləyə əsasən, 2022-ci ildə Azərbaycana gətiriləcək vaksinlərin sayı açıqlanıb.**

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyindən bildirilib ki, bu il ölkəyə ümumilikdə 3 280 000 doza vaksinin gətirilməsi nəzərdə tutulub.

*Qeyd olunub ki, müqavilələrə əsasən, ölkəyə 3 200 000 doza "CoronaVac", 80 000 doza "Sputnik V" vaksininin gətirilməsi planlaşdırılır.*

# Qazaxıstan parlamenti təsdiqləyib

Əlixan Smailov yeni Baş naziri təyin olunub



**Qazaxıstan parlamenti Əlixan Smailovu ölkənin Baş naziri vəzifəsinə təsdiqləyib.** "Report" "Zakon"a istinadən bildirir ki, onun lehinə 89 deputat səs verib. Bildirilib ki, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev bir müddət əvvəl Baş nazir postuna Ə.Smailovun namizədliyini təqdim etmişdi. Parlamentin təsdiqindən sonra dövlət başçısı Kasım-Jomart Tokayev Ə.Smailovun Baş nazir təyin olunması barədə sərəncam imzalayıb.

*Qeyd edək ki, Ə.Smailov 1972-ci ildə dekabrın 18-də Qazaxıstanın Almatı şəhərində anadan olub. 1993-cü ildən maliyyə və iqtisadiyyat sahələrində müxtəlif vəzifələrdə çalışıb. O, bu il yanvarın 5-dən Baş nazir səlahiyyətlərini icra edirdi.*

# Kəlbəcər istiqamətində vəziyyət gərginləşib

Ordumuz şəhid verib, qarşı tərəflə bağlı tədbirlər görülür



**Ermənistan silahlı qüvvələrinin yanvarın 11-i günorta saatlarından etibarən başlatdığı təxribat nəticəsində Azərbaycan-Ermənistan dövlət sərhədinin Kəlbəcər rayonu istiqamətində vəziyyət gərginləşib. Bu barədə Müdafiə Nazirliyindən bildirilib.**

Azərbaycan Ordusunun bölmələri qeyd olunan istiqamətdə heç bir aviasiya vasitəsi və artilleriyadan istifadə etmədən qarşı tərəfin susdurulması məqsədilə adekvat cavab tədbirləri həyata keçirir.

Hazırda əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

Azərbaycan Xarici İşlər Nazirliyi Ermənistanın Kəlbəcər istiqamətində növbəti təxribatı barədə məlumat yayıb. "Şərq"ə daxil olan məlumatda deyilir:

"Azərbaycan Müdafiə Nazirliyinin məlumat verdiyi kimi, 11 yanvar 2022-ci il tarixində Azərbaycan-Ermənistan dövlət sərhədinin Kəlbəcər rayonu istiqamətində Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribat nəticəsində hərbi qulluqçumuz, əsgər Nəzərov Ayaz Azər oğlu şəhid olub.

(Davamı səh.3)



## "Reproduktiv sağlamlıq haqqında" qanun layihəsi Milli Məclisdə müzakirəyə çıxarılır

**"Reproduktiv sağlamlıq haqqında" qanun layihəsi Milli Məclisin yaz sessiyasında müzakirəyə çıxarılacaq.**

"Report"un əldə etdiyi məlumata görə, layihənin parlamentin Səhiyyə komitəsinin yaz sessiyasının işlər planına daxil edilməsi nəzərdə tutulub.

Belə ki, komitənin yanvarın 19-da keçiriləcək iclasında bu məsələyə baxılacaq və qərar qəbul ediləcək.

*Xatırladaq ki, qanun layihəsi Milli Məclisin 2021-ci il yaz və payız sessiyasının qanunvericilik işləri planına daxil edilsə də müzakirəyə çıxarılmamışdı.*

# Rusiya Qarabağda 4 general dəyişib

Ancaq heç bir komandanın fəaliyyəti Bakını qane etmədi

**Azərbaycanın Qarabağ ərazisində müvəqqəti xidmət aparan Rusiya sülhməramlı kontingentinə yeni komandan təyin olunub.**

Bu barədə "RİA Novosti" məlumat verib. Məlumata əsasən, sülhməramlıların komandanı planlı rotasiyaya uyğun şəkildə dəyişdiriləcək. Hazırda təhvil-təslim işləri gedir.

(səh.3)





# BMT mavi dəbilqədən istifadəyə görə Qazaxıstana etiraz edib

Beynəlxalq təşkilatın tələbinə əməl olunub Qazaxıstandan izahat tələb etdi

**BMT Qazaxıstanın daimi nümayəndəsinə müraciət edib. Buna səbəb Qazaxıstan təhlükəsizlik qüvvələrinin BMT sülhməramlı qüvvələrininkinə oxşar dəbilqələr taxdığı fotoşəkillərin yayılmasıdır.**

"Şərq" "radiosputnik.ria.ru"ya istinadən xəbər verir ki, bu barədə BMT-nin baş katibinin mətbuat katibi Stefan Düjarrik brifinq zamanı bildirib.

Məlumata görə, BMT bu fotoşəkillərin mənbələrinin həqiqiliyini yoxlamağa başlayıb. Mətbuat katibi onu da vurğulayıb ki, təşkilatın simvollarından yalnız sülhməramlı əməliyyatlarda iştirak etmək üçün BMT mandatı olduqda istifadə edilməlidir.

Düjarrik onu da əlavə edib ki, Qazaxıstan Respublikasının Daimi Nümayəndəliyi BMT-ni əmin edib ki, təşkilatın sülhməramlı qüvvələrinin mavi dəbilqələrinə bənzər dəbilqələrdən ölkənin təhlükəsizlik qüvvələri tərəfindən istifadə edilməsi məsələsi "həll olunub".

*Qeyd edək ki, fotoları britaniyalı jurnalist Ceyk Hanrahan öz tvitter səhifəsində yerləşdirib.*

**Xanlar**



# "Adam bilmir ağlasın, yoxsa sevinsin"

Rasim Mədəd: "Vaxtilə top-top oynadığım həyatimizdə qoşqulu hərbi top qoyulmuşdu"

(səh.4)

# Nazarbayev "geopolitik əməliyyat"la uzaqlaşdırıldı

İlk baxışdan, Qazaxıstan faciəsinin senari müəllifləri öz hədəflərinə həlelik çatmış kimi görünürlər



(səh.5)

# Ermənistan etiraf edib

## Düşmən sərhəddə törətdikləri öz təxribatları nəticəsində iki əsgərini itirib



**Ermənistanın Azərbaycanla sərhəddə təxribatı iki erməni hərbçinin ölümünə səbəb olub.**

Trend-in məlumatına görə, bu barədə Ermənistan Müdafiə Nazirliyi bildirib.

Ermənistan Müdafiə Nazirliyindən verilən məlumata əsasən, bundan əlavə, iki erməni hərbçi də yaralanıb.

Qeyd edək ki, daha əvvəl Azərbaycan Müdafiə Nazirliyindən bildirilib ki, Azərbaycan-Ermənistan dövlət sərhədinin Kəlbəcər rayonu istiqamətində yanvarın 11-i günorta saatlarında Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribat nəticəsində hərbi qulluqçumuz müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Nəzərov Ayaz Azər oğlu şəhid olub.

Ermənistan silahlı qüvvələrinin yanvarın 11-i günorta saatlarından etibarən başlatdığı təxribat nəticəsində Azərbaycan-Ermənistan dövlət sərhədinin Kəlbəcər rayonu istiqamətində vəziyyət gərginləşib. Azərbaycan Ordusunun bölmələri qeyd olunan istiqamətdə heç bir aviasiya vasitəsi və artilleriyadan istifadə etmədən qarşı tərəfin susdurulması məqsədilə adekvat cavab tədbirləri həyata keçirir.

Hazırda əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.



## Ukraynaya dəstək ifadə olunub

### ABŞ Dövlət katibinin müavini Stoltenberqlə Rusiyanı müzakirə edib

**ABŞ dövlət katibinin birinci müavini Vendi Şerman Brüsseldə NATO Baş katibi Yens Stoltenberqlə görüşüb.**

APA-nın xəbərinə görə, bu barədə ABŞ dövlət katibinin birinci müavini "Twitter" hesabında məlumat verilib.

Görüşdə yanvarın 12-də keçiriləcək NATO-Rusiya Şurasının iclası və gərginliyi azaltmaq üçün Rusiyanın addımlarının vacibliyi müzakirə olunub.

"Biz Rusiya ilə bağlı NATO-nun çəkindirmə və dialoqu əhatə edən vahid yanaşmasını təsdiqlədik və Ukraynaya sarsılmaz dəstəyimizi vurğuladıq", - dövlət katibinin birinci müavini bildirib.

*Qeyd edək ki, yanvarın 10-da Cenevrədə Vendi Şermanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə Rusiya xarici işlər nazirinin müavini Sergey Ryabkovun rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş olub.*

## 1 448 vətəndaş qeyri-qanuni miqrantdır

### Ukraynada qanunsuz yaşayan və deport olunan Azərbaycan vətəndaşlarının sayı məlum olub

**Ötən il Ukraynada qanunsuz yaşayan və deportasiya olunan Azərbaycan vətəndaşlarının sayı məlum olub.**

Ukrayna Dövlət Miqrasiya Xidmətindən "Report"un Şərqi Avropa bürosunun sorğusuna cavab olaraq bildirilib ki, 2021-ci ildə ümumilikdə 1 448 Azərbaycan vətəndaşının qeyri-qanuni miqrant olduğu müəyyən edilib.

Ötən il 2 Azərbaycan vətəndaşının könüllü olaraq ölkəsinə geri qayıtması barədə qərar qəbul edib, 1 380 Azərbaycan vətəndaşı isə məcburi ölkəsinə geri qaytarılıb. 47 Azərbaycan vətəndaşının isə Ukrayna dövləti hüdudlarından məcburi qovulması barədə qərar çıxarılıb.

## Prezident İlham Əliyev 90 yaşlı akademiki təltif edib



**Məmməd Əhəd oğlu Salmanov "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilib. Bununla bağlı Prezident İlham Əliyev sərəncam imzalayıb.**

O, Azərbaycan Respublikasında elmin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə təltif olunub.

*Qeyd edək ki, biologiya elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü AMEA-nın həqiqi üzvü M.Salmanovun sabah (bu gün) 90 yaşı tamam olur.*

## Ədalət Vəliyev İlqar Məmmədovla görüşüb



**Prezident Administrasiyasında Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Respublikaçı Alternativ Partiyasının sədri İlqar Məmmədovla görüşüb.**

APA-nın xəbərinə görə, bu barədə İlqar Məmmədov bildirib.

İ. Məmmədov vurğulayıb ki, Ədalət Vəliyevlə görüş zamanı müxtəlif məsələlər müzakirə olunub.

## Bakı-Naxçıvan aviareysləri barpa olunub



**Bakı və Naxçıvan Muxtar Respublikası arasında güclü dumana görə təxirə salınan aviareyslər bərpa olunub və təyyarələr bu istiqamət üzrə hərəkət edir.**

Heydər Əliyev Beynəlxalq Hava Limanından "APA-Economics"ə verilən məlumata görə, hazırda sözügedən istiqamət üzrə aviareyslər həyata keçirilməkdədir.

## "Qardaşlarımızın yanındayıq"

### Azərbaycan Türk Ocağı Qazaxıstan hadisələri ilə bağlı Bəyanat yayıb

**Azərbaycan Türk Ocağı qardaş Qazaxıstan Respublikasında 2 yanvar 2022-ci ildən başlayan, sonradan ölkə ərazisini bürüyən etiraz aksiyaları zamanı qətlə yetirilənlərə görə kədərlənir, soy qardaşlarımız olan qazax türklərinin bu ağır günlərində onlarla həmrəy olduğunu bildirir, hadisələr zamanı yaralananlara Tanrıdan şəfa diləyir.**

Azərbaycan Türk Ocağı ölkədaxili etirazların nəzarətdən çıxaraq daha çox itkilərə, dağıntılara, zorakılığa səbəb olmaması üçün Qazaxıstandakı milli qüvvələri birliyə çağırır, narazılıqları sivil qaydada aradan qaldırmağa səsləyir. Qazaxıstan Prezidenti Qasım - Comərd Tokayevin böyük əksəriyyəti rus silahlılarından ibarət olan KTMT dövlətlərinin silahlı qüvvələrinin ölkəsinə gəlişini əsaslandırmaq üçün, öz xalqını "quldur" və "terrorçu" adlandırmasını qətiyyətlə pisləyir. Azərbaycan Türk Ocağı bildirir ki, KTMT dövlətlərinə mənsub silahlı qüvvələrin Qazaxıstan ərazisinə soxulması BMT nizamnaməsinin 51-ci maddəsinə zidd olduğu üçün qeyri-qanunidir. Ölkədaxili etirazlar Qazaxıstanın daxili güc strukturları tərəfindən tənzimlənməlidir. Təşkilat "Türk Dövlətləri Təşkilatı"nı Qazaxıstanda baş verən insan hüquqlarının pozulmasına, Rusiya silahlı qüvvələrinin qeyri-qanuni ölkəyə daxil olmasına adekvat reaksiya verməyə çağırır.

**Sənan**



## Azərbaycan dünyanın 69 ölkəsi ilə vizasız gediş-gəliş rejiminə malikdir

**"Henley&Partners Visa Restrictions İndex"in yeni reytinqində 74-cü yerdə olan Azərbaycan dünyanın 69 ölkəsi ilə vizasız gediş-gəliş rejiminə malikdir.**

"Report" xəbər verir ki, "Henley&Partners" məskunlaşma və vətəndaşlıq xidmətləri mərkəzinin hesabatına görə, bununla da ötən il 80-ci yerdə olmuş Azərbaycan reytinqdə 6 pillə irəliləməyə nail olub.

Reytinqdə lider mövqeyini bölüşən Sinqapur və Yaponiya 192 ölkə ilə vizasız rejimə malikdir. Almaniya və Cənubi Koreya vətəndaşları isə 190 ölkəyə vizasız gedir.

*Qeyd edək ki, "Henley & Partners" şirkətinin viza məhdudiyyətləri indeksi dünya ölkələr və bölgələrinin viza qaydalarına görə təsnifatını çıxarır. Bu reytinq səyahət etməyə, yaxud xaricə köçməyə hazırlaşan hər kəs üçün əsas istinad mənbəyidir.*

# Rusiya Orta Asiyada istədiyini həyata keçirə bilməyəcək

## Qazaxıstana ordu yeritmək hadisələrin arxası ilə sürünməkdir



### "Hadisələr NATO, Avropa İttifaqı və Türkiyə tərəfindən diqqətlə izlənilir"

**Yanvarın 10-da Qazaxıstan Prezidenti Qasım-Jomart Tokayev və Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel arasında videokonfrans keçirilib.**

Bu barədə Ş.Mişelin sosial media hesabında bildirilib. Qazaxıstandakı son hadisələri müzakirə etdiklərini ifadə edən Mişel bir həftədir davam edən hadisələrdə həyatını itirənlərlə bağlı başsağlığı verib. Mişel Qazaxıstanla tərəfdaşlığın, eləcə də Aİ-nin insan hüquqları və əsas azadlıqlar çərçivəsində ölkənin suverenliyinə, təhlükəsizliyinə və sabitliyinə dəstəyini vurğuladığını bildirib.

**Aİ rəsmisi Şarl Mişelin Qazaxıstan prezidenti ilə əlaqə saxlamasını "Şərq"ə təhlil edən Vəhdət Partiyasının sədr müavini Vasif Əfəndiyev deyib ki, Qazaxıstan hadisələri fonunda Avropa İttifaqının bu ölkənin rəhbəri ilə təmas qurması vəziyyətin beynəlxalq ictimaiyyətin və xüsusən də Qərbin diqqətində olduğunu isbatlayır.** Partiya təmsilçisinə görə, bəzilərinin düşündüyü kimi Rusiya Orta Asiyada istədiyini həyata keçirə bilməyəcək: "Putinin SSRİ modelində yeni dövlətlər birliyi yaratmaq cəhdi uğursuz oldu. Rusiyanın tələsik Qazaxıstana ordu yeritməsi hadisələrin arxasınca sürünməkdir. Qazaxıstandakı kütləvi etiraz mitinqlərini hansısa kənar qüvvələrin təşkil etməsi fikri reallığı əks etdirmir. Qazax xalqı sovet tarixində ən böyük etiraz mitinqləri təşkil edərək rus canişini kənarlaşdırmağa nail olublar. Kunayev və Nazarbayev kimi güclü və xarakterli dövlət başçıları olan ölkədə imperiya təsirləri xeyli azalmışdı. Nazarbayev yaşlandığı üçün hakimiyyətin təcrübəli və milli şəxsə ötürülməsi prosesi gedir. Tokayev-Mişel görüşündən sonra KTMT qüvvələrinin Qazaxıstanı tərk edəcəyi bəyanatı bununla bağlı idi. Tokayevin hadisələrin axarı zamanı özünü vassal kimi aparması onun siyasi karyerasına qara hərflərlə yazıldı, prezidentlik müddətini maksimum azaltdı. Hadisələr NATO, Avropa İttifaqı və Türkiyə tərəfindən diqqətlə izlənilir. Putinin digər Orta Asiya rəhbərlərini təzyiq altında saxlamaq cəhdləri neytrallaşmaq üzrədir. Hesab edirəm, Türk Dövlətləri Təşkilatı fəaliyyətində yeni fazaya qədəm qoyacaq. Birlikdə müttəfiqlik münasibətləri daha da dərinləşəcək".

**İsmayıl**

İsmayıl Qocayev

**Rusiya Ukrayna və Gürcüstanın heç vaxt NATO üzvü olmayacağına dair dəmir zəmanət istəyir. Bunu ötən gün Cenevrədə Rusiya-ABŞ dialoqunda Moskvanı təmsil edən Rusiya xarici işlər nazirinin müavini Sergey Ryabkov bildirib. Onun sözlərinə görə, Ukraynanın heç vaxt NATO üzvü olmayacağına əmin olmaq Kreml üçün mütləqdir:**

"Biz istərdik ki, 2008-ci ildə Buxarest sammitində qəbul edilmiş formul - NATO-nun Madrid formulu geri götürülsün və aşağıdakılarla əvəz edilsin. Ukrayna və Gürcüstan heç vaxt Şimali Atlantika Alyansının üzvü olmayacaq. Biz boş söhbətlər aparmaqdan, yarı vədlərdən, tez-tez bağlı qapılar arxasında danışıqlarda baş verən yanlış şərhlərdən bezmişik. Qarşı tərəfə inanmırıq. Bizə dəmir-beton, hüquqi əhəmiyyətli təminatlar, vədlər yox, zəmanətlər lazımdır, "heç vaxt NATO üzvü olmamalıdır" sözləri lazımdır. Bu, Rusiyanın milli təhlükəsizliyi məsələsidir". Ukrayna və Gürcüstanın bu məsələdə mövqeyi bəllidir və NATO-nun bu tələbə "yox" deyəcəyi şübhəsizdir.



# NATO-nun Şərqə doğru genişlənməsi planı çoxdan mövcuddur

## Rusiya Ukraynaya hərbi müdaxilə edərsə, ABŞ ona Ukraynanı NATO üzvü etməklə cavab verə bilər

**Kremlin absurd şərtini "Şərq"ə dəyərləndirən politoloq Azər Rəşidoğlu deyib ki, NATO-nun Şərqə doğru genişlənməsi planı çoxdan mövcuddur. Analitik vurğulayıb ki, Gürcüstanı hərbi alyansa üzv etmək istəyən Qərb ölkələri Qara dənizdə böyük əhəmiyyətə malik - Poti limanına çıxış əldə edəcəklərini düşünürlər:** "Ukraynanın NATO-ya üzvlüyü Kremlin maraqlarının darmadağın edilməsi anlamına gəlir. Ancaq nə Brüssel, nə də Vaşinqton Ukraynaya NATO-ya qoşulma zəmanəti verir. Hazırda Ukraynanın quruma üzv olmasına əsas maneə Donbassdakı müharibə, Şərqi Ukraynanın rus işğalı altında olmasıdır. Təşkilatın nizamnaməsinə görə, ərazi, etnik və ya siyasi münaqişələri həllini tapmamış dövlətlər bloka qəbul olunmur. Brüssel başa düşür ki, ən azından hansısa formallığa əməl etmək lazımdır. Digər tərəfdən, bu hal, alyans ölkələrinə beynəlxalq hüquqa zidd olaraq Kosovanın müstəqilliyini tanımağa imkan verərdi. Eynilə Təhlükəsizlik Şurasının icazəsi olmadan İraqa girildiyi kimi. Yəni Rusiya bundan istifadə edib Qərbi Ukraynaya da soxula bilər. Keçmiş SSRİ-də silahlanmasına görə ikinci ölkə olan Ukrayna hərbi alyansa qoşulmaqla onun hərbi gücünə güc qata bilərdi. İqtisadi baxımdan Kiyev NATO-nun müdafiə xərclərinin ödənilməsində çətinlik çəkə bilər. Lakin Alyansın dəstəyi ilə maliyyə problemini rahatlıqla həll edərdi. Ukrayna müasir silahların geniş çeşidlərini əldə etməklə ərazi problemlərinin həllində ciddi dəyişiklik yaradardı. Necə ki, Türkiyədən zərbə PUA-larının alınması artıq ilkin nəticələrini göstərir".

**A.Rəşidoğlu qeyd edib ki, Kiyev üçün hazırda əsas problem odur ki, NATO-ya üzvlük üçün qərar yekdilliklə verilməlidir:** "Almaniya və Fransanın Ukraynanın Türkiyə istehsalı olan zərbə PUA-sından istifadəsinə qarşı çıxmaları məsələnin həllinə əngəl törədə bilər. Türkiyə bu məsələdə Amerika ilə tam həmrəydir. Əslində Ukraynanın hərbi bloka üzvlüyü Rusiyaya qarşı yönəlmiş addım kimi dəyərləndirilsə də, reallıq başqadır. Ukrayna Rusiyaya qarşı heç bir fəaliyyətdə iştirak etməyib. Əksinə, Krımın ilhaqını və Ukraynanın şərqində separatizmi dəstəkləyən fəaliyyətləri Rusiya həyata keçirib. 21-ci əsrdə ölkələrin sərhədlərini dəyişdirmək sadə proses deyil. Rusiyanın bu tip ideyaları gec-tez bumeranq effekti yarada bilər. NATO-nu Ukrayna üçün cəlbedici edən Alyans nizamnaməsinin 5-ci bənddir. Bu bəndə görə üzv ölkələr Avropa və ya Şimali Amerikada yerləşməsindən asılı olmayaraq, onlardan birinə və ya bir neçəsinə qarşı edilmiş silahlı hücum hamısına edilmiş hücum sayılır. Belə bir hücum baş verərsə onlardan hər biri BMT-nin Nizamnaməsinin 51-ci Maddəsinə uyğun olaraq, fərdi və kollektiv şəkildə özünümüdafiə hüququndan istifadə edərək, hücuma məruz qalmış tərəf və ya tərəflərə yardım edə bilərlər. Ukraynanın həm ərazi bütövlüyünü, həm də gələcəkdə suverenliyini təmin etmək üçün Təhlükəsizlik Şurasının üzvü olan 3 nüvə ölkəsinin yer aldığı bloka tərəf istiqamətlənməsi normal qarşılanmalıdır".

*Siyasi şərhçinin fikrincə, NATO-nun Şərqi Avropa və Pribaltikadan sonra Ukraynaya və Gürcüstana yerləşmək niyyəti Kremli bir qədər cilovlamaq məqsədi daşıyır:* "Bu addımla ABŞ Rusiyanın hücum və müdafiə potensialını ciddi şəkildə təhdid edir. Növbəti addım Şərqi Avropada olduğu kimi, Ukrayna ərazisində də qısa və orta mənzilli zərbə vasitələrinin yerləşdirilməsindən ibarət ola bilər. Raketlərin Rusiyanın qərbindəki ən böyük şəhərlərə uçuş müddəti bir neçə dəqiqə ilə hesablanacaq. Rusiya ilə növbəti geosiyasi gərginliyin baş verəcəyi təqdirdə bu sistemlər NATO-nun Kreml üzərində hərbi təzyiqini təmin edə bilər. Rusiyaya qarşı Qərbin perventiv zərbə potensialı müəyyən mənada Moskvanı ehtiyatlı davranmağa meyillendirəcək. Rusiya Ukraynaya hərbi müdaxilə edərsə, ABŞ ona Ukraynanı NATO üzvü etməklə cavab verə bilər".

# Kəlbəcər istiqamətində vəziyyət gərginləşib

## Ordumuz şəhid verib, qarşı tərəflə bağlı tədbirlər görülür





### ABŞ dövlət katibinin köməkçisi Ermənistanın təxribatı barədə məlumatlandırılıb

**(Əvvəli səh.1)**

Ermənistan tərəfinin hərbi təxribatları davam etdirməsini qətiyyətlə pisləyirik. İki dövlət arasında münasibətlərin normallaşması istiqamətində addımlar atmaq əvəzinə, dövlət sərhədində növbəti qanlı təxribatı törətməklə Ermənistanın hərbi-siyasi rəhbərliyi bölgədə vəziyyətin gərginləşdirilməsinə görə bilavasitə məsuliyyət daşıyır.

**Allah Şəhidimizə rəhmət eləsin!"**

*Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribat nəticəsində şəhid olan Nəzərov Ayaz Azər oğlu Tovuz rayon Bozalqanlı kəndindəndir.*

*"Report"un Qərb bürosunun məlumatına görə, 24 yaşlı Ayaz Nəzərov ailənin 2-ci oğludur.*

*Ondan böyük bir qardaşı var. O, subay olub. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər A.Nəzərov Tovuz rayonunda dəfn olunacaq.*

Dünən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Karen Donfrid ilə telefon danışığı baş tutub.

Bu barədə Azərbaycanın Xarici İşlər Nazirliyi xəbər verib.

Tərəflər regional təhlükəsizlik vəziyyəti ətrafında fikir mübadiləsi aparıblar.

C.Bayramov bölgədə mövcud olan ən son vəziyyət, o cümlədən üçtərəfli bəyanatların icrası ilə bağlı Azərbaycan tərəfindən atılan addımlar barəsində danışıb. Nazir Ermənistan tərəfinin iki dövlət sərhədində təxribatı davam etdirdiyi və Kəlbəcər istiqamətində bir hərbi qulluqçumuzun şəhid olması haqqında qarşı tərəfə məlumat verib və bu təxribata görə məsuliyyətin bilavasitə Ermənistan hərbi-siyasi rəhbərliyinin üzərinə düşdüyünü vurğulayıb.

Telefon danışığı zamanı tərəflər, həmçinin qarşılıqlı maraq doğuran digər mövzuları müzakirə ediblər.

***Ermənistanın bir müddət fasilədən sonra yenidən sərhəddə provakasiyaya əl atmasını "Şərq"ə təhlil edən politoloq Məhəmməd Əsədullazadə deyib ki, İrəvan hökuməti Qazaxıstan hadisələrindən KTMT-nin rolundan "ruhlanaraq" Azərbaycanla əldə olunan razılaşmaları kobud surətdə pozmağa çalışır.*** Analitikin sözlərinə görə, Ermənistan bu vasitə ilə Azərbaycana təzyiq edəcəyini düşünür: "Paşinyan çalışır ki, KTMT Azərbaycana qarşı kəskin mövqe ortaya qoysun və Ermənistanla dövlət sərhədində yerləşsin. Baş verənlər Ermənistanın əleyhinə işləyəcək. Hərbi blokun proseslərə cəlb edilməsi üçün Moskvanın razılığı lazımdır. Kreml indiki zamanda Azərbaycan və Türkiyəni qarşısına alaraq vəziyyəti gərginləşdirmək niyyətində deyil. Ona görə də Ermənistanın israrına və təxribatlarına rəğmən KTMT bu məsələdən kənar tutulacaq. Qazaxıstanda Rusiyanın sülhməramlı siyasəti iflasa uğradı. Qoşunların çıxarılması ilə bağlı verilən qərar göstərir ki, qazax xalqı rus ordusunun əleyhinədir. Moskva ruslara qarşı nifrəti artırmaq və əlavə problemlər yaratmaq fikrində deyil. O baxımdan İrəvanın KTMT ilə bağlı planı da baş tutmayacaq".

**İsmayıl**

**Azərbaycanın Qarabağ ərazisində müvəqqəti xidmət aparan Rusiya sülhməramlı kontingentinə yeni komandan təyin olunub. Bu barədə "RİA Novosti" məlumat verib. Məlumata əsasən, sülhməramlıların komandanı planlı rotasiyaya uyğun şəkildə dəyişdiriləcək. Hazırda təhvil-təslim işləri gedir. Sözügedən vəzifədə general-leytenant Gennadi Anaşkini general-mayor Andrey Volkov əvəzləyəcək.**



# Rusiya Qarabağda 4 general dəyişib

## Ancaq heç bir komandanın fəaliyyəti Bakını qane etmədi

A.Volkov 2020-ci ilin noyabrından 2021-ci ilin mayına qədər sülhməramlı kontingentə rəhbərlik edən general-leytenant Rüstəm Muradovun müavini olub. O, hazırda Rusiya Müdafiə Nazirliyinin Cənub hərbi dairəsinin radiasiya, kimyəvi və bioloji müdafiə qoşunlarının rəhbəridir.

"Azərbaycanı narahat edən ən böyük problem Qarabağdakı erməni silahlılarının ordan çıxarılmasıdır"

Xatırladaq ki, bu, Qarabağ regionundakı Rusiya sülhməramlı kontingentinin sayca 4-cü komandan dəyişikliyidir. İlk komandan Rüstəm Muradov olub. O, missiyasını başa vurduqdan sonra qısa müddət ərzində bu vəzifəni general-mayor Mixail Kosobokov yerinə yetirib. 2021-ci ilin sentyabrından isə bu vəzifəyə Gennadi Anaşkin təyin olunub.

**Hərbi ekspert Ədalət Verdiyev rus sülhməramlılarının tez-tez komandan dəyişikliyini "Şərq"ə şərh edərkən deyib ki, bu, Rusiya Müdafiə Nazirliyinin səlahiyyətlərinə aid olan məsələdir. Ekspert indiyə qədər bu vəzifəni icra edən komandanların fəaliyyətinə diqqət çəkib:**

"Qısa müddət öncə bu vəzifəyə təyin edilən Kosobokov və digərlərinin fəaliyyətləri heç də qaneedici olmayıb. Əsgərlərimizə qumbara atan Norayr Mirzoyanın Ermənistana, Azərbaycana deyil, separatçı quruma təhvil verilməsi Bakını qane etmədi. Üstəlik, rus sülhməramlılarının nəzarətində olan ərazilərə rusiyalı deputat Vitaliy Milonovun və fransalı prezidentliyə namizəd Valeri Pekresin Xankəndiyə qanunsuz səfəri təbii ki, qəbuledilən deyildi. Bununla bağlı Azərbaycan tərəfi bir neçə dəfə narazılıq ifadə edib".

**Ə.Verdiyev hesab edir ki, indi Rusiya rəsmi Bakının narazılıqlarını aradan qaldırmaq üçün belə bir addım atmağa məcbur olub:**

"Bu vəzifəyə yeni təyin edilən və ərazi ilə daha yaxşı tanış olan A.Volkovun fəaliyyəti də ümumi mənzərəni dəyişməyəcək. Azərbaycanı narahat edən ən böyük problem Qarabağdakı erməni silahlılarının ordan çıxarılmasıdır. Biz bunları öncəki üç komandanın dövründə müşahidə etmədik".

Hərbi ekspertin fikrincə, bu təyinatdan sonra da erməni silahlı birləşmələrinin Qarabağ ərazisindən çıxarılması prosesinə başlanılacağına inanmaq bir qədər absurddur: "Amma yenə də ümid edək ki, Rusiya heç olmasa təyin etdiyi dördüncü komandanla 14 ay öncə üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyə başlayacaq".

**Günəş Mərd**

# Türk dövlətləri Qazaxıstanın yanındadır

## Nazirlər əminliyini bildirib ki, tezliklə ölkədə sabitlik bərpa olunacaq




**İsmayıl Qocayev**

**Dünən Türkiyənin təşəbbüsü ilə Türk Dövlətləri Təşkilatına (TDT) üzv dövlətlərin Xarici İşlər Nazirləri Şurasının Qazaxıstana dair fövqəladə iclası keçirilib. Nazirlər Qazaxıstandakı həyatını itirənlərin yaxınlarına başsağlığı verib, yaralılara şəfa diləyiblər. Üzv ölkə Qazaxıstana və onun qardaş xalqına olan güclü dəstəklərini və həmrəyliklərini təsdiq ediblər.**

İclasda Qazaxıstanda sülh və sabitliyin əhəmiyyəti vurğulanıb. İnsanların həyatını təhlükəyə atan, ictimai asayişi pozan, şiddətə yönəlik hərəkətlər və vandalizm aktları qınanıb. Qazaxıstan hakimiyyətinin ölkədə ictimai asayişi və vəziyyətin normallaşmasını sürətlə bərpa etmək imkanlarına inam vurğulanıb. Beynəlxalq hüququn fundamental qayda və prinsiplərinə riayət etmənin əhəmiyyəti vurğulanıb. Qazaxıstan hökumətinin konstitusiya quruluşunu devirməyi hədəfləyən terrorçulara, radikallara qarşı apardığı antiterror əməliyyatları dəstəklənib. Türk Dövlətləri Təşkilatı bu mövzuda yaxın əməkdaşlıq və məşvərət içərisində qalmağa qərar verib.

### "Böyük türk dünyası Qazaxıstanın yanındadır"

**Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu Qazaxıstanda vəziyyətin nəzarət altına alınmasından məmnun olduğunu deyib. O, Qazaxıstanda yeni baş nazir təyinatından da məmnunluğunu ifadə edib:** "Böyük türk dünyası olaraq Qazaxıstanın yanındayıq". Çavuşoğlu qeyd edib ki, iclasın sonunda birgə bəyannamə qəbul ediləcək. TDT üzvlərini kəşfiyyat sahəsində əməkdaşlığı gücləndirməyə çağırıb: "Sonuncu İstanbul Zirvə Görüşündə təşkilatın adının dəyişdirilməsi tarixi addımdır və bu, əhəmiyyətli dərəcədə məsuliyyət yaradır. Bərabər şəkildə hərəkət edərək qazax qardaşlarımızın mümkün ehtiyaclarına cavab verməliyik". O bildirib ki, İstanbul Sammiti çərçivəsində təsdiqlənmiş "Türk Dünyası 2040 Vizyonu" sənədi daxili və xarici sınaqlarda lazımi birliyi, həmrəyliyi özündə ehtiva edir: "Bu çərçivədə təşkilat olaraq siyasi və iqtisadi bütövlük istiqamətində addımlarımızı sürətləndirməliyik". Türkiyə XİN başçısının sözlərinə görə, təbii ki, inkişaf üçün ən başlıca şərt sabitlik və təhlükəsizlikdir. Nazir təşkilat daxilində təhlükəsizlik və kəşfiyyat qurumları arasında əməkdaşlığı daha müntəzəm və institusional struktura çevirməklə bağlı çağırış edib.

### "Azərbaycan Qazaxıstanda vəziyyətin tez bir zamanda normallaşmasına tərəfdardır"

**Azərbaycan Xarici işlər naziri Ceyhun Bayramov vurğulayıb ki, Azərbaycan Qazaxıstanda vəziyyətin tez bir zamanda normallaşmasına tərəfdardır.** C.Bayramov Azərbaycanın Qazaxıstanda vəziyyətin tezliklə normallaşmasının və qanunun aliliyinin bərpasına tərəfdarı olduğunu bildirib. XİN başçısı deyib ki, Azərbaycan Qazaxıstanın suverenliyi və ərazi bütövlüyünə hörmətini bir daha təsdiqləyir: "Azərbaycan qardaş Qazaxıstandakı mövcud vəziyyəti dərin narahatlıqla izləyir. Ötən həftə baş verən hadisələrin insan tələfatı və yaralanması ilə nəticələnməsi xüsusilə təəssüf doğurur. Bununla əlaqədar biz, ölənlərin ailələrinə, yaxınlarına və bütün qazax xalqına dərin hüznlə başsağlığı verir, bütün yaralıların tezliklə şəfa tapmasını diləyirik".

### "Türk Dövlətləri Təşkilatının üzərinə mühüm vəzifə düşür"

**Nazirin sözlərinə görə, Azərbaycan Qazaxıstanda vəziyyətin tezliklə normallaşmasının və qanunun aliliyinin bərpasının tərəfdarıdır:** "İctimai asayişə xələl gətirən, fundamental insan hüquqlarına və vətəndaşların azadlıqlarına təhdid törədən gücdən qanunsuz istifadə və zorakılığa heç bir bəraət qazandırıla bilməz və buna görə də qətiyyətlə pislənməli və rədd edilməlidir. Biz Qazaxıstan xalqının və hökumətinin müdrikliyinə və qabiliyyətinə inanırıq. Biz inanırıq ki, Qazaxıstan müstəqilliyini bərpa etdikdən sonra əldə etdiyi əlamətdar nailiyyətləri riskə atmadan vəziyyətdən çıxacaq və sağlam düşüncə qalib gələcək. Bu baxımdan Türk Dövlətləri Təşkilatının üzərinə mühüm vəzifə düşür. Təşkilat üzv dövlətlər arasında həmrəylik üzərində qurulub və bu çətin zamanda qazax bacı və qardaşlarımızın yanında olmaq bizim ümumi məsuliyyətimizdir. Bununla əlaqədar biz, Təşkilatın mövcud vəziyyətdən çıxış yolu tapmaqda Qazaxıstana lazım gəldikdə yardım etməyə hazır olduğunu bəyan edən 6 yanvar 2022-ci il tarixli Bəyanatını alqışlayırıq. Bunu biz, Təşkilatın üzv və müşahidəçi ölkələrinə münasibətdə öz öhdəliklərini yerinə yetirmək bacarığı və möhkəm qətiyyəti işarəsi kimi qiymətləndiririk. Eynilə, bugünkü növbədənkənar görüşü və qəbul edəcəyimiz birgə bəyanatı Qazaxıstan xalqı və hökuməti ilə açıq-aydın həmrəylik nişanəsi kimi yüksək dəyərləndiririk".

### "Azərbaycan və Qazaxıstan həm ikitərəfli, həm də çoxtərəfli platformalarda strateji tərəfdaşdır"

**Nazir qeyd edib ki, Qazaxıstanla dərin köklü etnik, dini və tarixi qardaşlığa malik ölkə kimi Azərbaycan, Qazaxıstanın suverenliyinə və ərazi bütövlüyünə hörmətlə yanaşmağın mühüm əhəmiyyətini bir daha təsdiqləyir:** "Azərbaycan və Qazaxıstan həm ikitərəfli, həm də çoxtərəfli platformalarda, o cümlədən Türk Dövlətləri Təşkilatı və müvafiq institutları çərçivəsində yüksək səviyyəli strateji tərəfdaşlıq münasibətlərinə malikdir. Birgə maraqlar və qarşılıqlı mənfəət əsasında qurulan bu münasibətlər, hər iki ölkənin qətiyyəti və bölüşülən baxışları sayəsində bir sıra mühüm regional və trans-regional layihələrin həyata keçirilməsi üçün leytmotiv olub. Azərbaycan, yalnız bizim dövlətlərimiz və xalqlarımızın xeyrinə deyil, həmçinin bölgədə və ondan kənarda təhlükəsizlik, sabitlik və əməkdaşlığa ciddi şəkildə töhfə verəcək bu münasibətlərin daha da dərinləşdirilməsi məqsədinə sadiqdir. Qeyd olunanlar müstəvisində, biz Qazaxıstanda vəziyyətin tezliklə normallaşdırılması və qazax xalqının və bütün regionun rifahı naminə geniş tərkibli islahatların davam etdirilməsi yolu ilə ölkədə siyasi, sosial və iqtisadi inkişafa qayıtmaq səylərini dəstəkləyirik".

**Qazaxıstan lideri Kasım-Jomart Tokayev parlamentdə deputatlar qarşısında çıxış edib. Çıxış zamanı o, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının sülhməramlı kontingentinin ölkəni tərk edəcəyi tarixi açıqlayıb.**



# KTMT gücünü artırdı

## Əslində Tokayev ölkədə səssiz dövlət çevrilişi etdi

Bildirib ki, proses iki gün sonra başlayacaq və 10 gündən çox çəkməyəcək: "KTMT sülhməramlı qüvvələrinin əsas missiyası uğurla başa çatıb".

"Belə bir məqamda KTMT-nin ölkədə qalmasına da heç bir gərək yoxdur, çünki Tokayev onsuzda Rusiyanın dediyi hər şeyi edəcək"

Bəs görəsən, KTMT sülhməramlı kontingenti ölkəni tərk etdikdən sonra onun Qazaxıstanda təsir "rıçaqları" qalacaqmı?

**Siyasi analitik Turab Rzayev KTMT-nin Qazaxıstandakı fəaliyyətini "Şərq"ə danışarkən bildirib ki, əslində Tokayev elə KTMT-dən istifadə edərək ölkədə səssiz bir dövlət çevrilişi etdi:**

"O, bu şəkildə türk dünyasının ağsaqqalı sayılan, türk dövlətlər birliyinin fikir atalarından biri olan Nazarbayevi hakimiyyətdən devirdi. Tokayevi Qazaxıstan müxalifəti iqtidarsız, kifayət qədər güclü sayıla bilməyən, iradəsiz şəxsiyyət adlandırır. Onun belə bir çevriliş etməyində Rusiya birbaşa iştirak etdi və daha sonra süni müdaxilə yaratdı. Özünə tabe olan cinayətkar qruplaşmaları küçələrə saldı, daha sonra həmin şəxsləri fərdi şəkildə imitasiya etdi, bəzilərini öldürdü".

*Analitikin qənaətincə, Tokayevin hakimiyyəti Nazarbayevlə paylaşmaq istəməməsi ilə Qazaxıstanı rəsmi Moskvadan daha asılı bir hala gətirib çıxardı:* "Belə bir məqamda KTMT-nin ölkədə qalmasına da heç bir gərək yoxdur, çünki Tokayev onsuz da Rusiyanın dediyi hər şeyi edəcək. Bunun sırf Rusiyadakı MDB liderlərinin görüşündən sonraya düşməsi təsadüf deyil. Ola bilsin ki, məhz bu görüşdə Nazarbayevə müstəqilliyinin müəyyən hissəsini güzəştə getmək təklif olunub. O bunu qəbul etməyib və daha sonra rəsmi Moskva Tokayevə dövlət çevrilişi etmək üçün tam dəstək verib".

**Günəş Mərd**

# "İrəvan Qazaxıstan hadisələrinə fürsət kimi baxır"



"Ermənistanın bu məqsədlə sərhəddə hücumları genişləndirəcəyi istisna deyil..."

**"KTMT qüvvələri Qazaxıstanda "ilk missiyasını" yerinə yetirdiyi vaxtda Ermənistanın Kəlbəcər istiqamətində Azərbaycan Ordusunun mövqelərini atəşə tutması təsadüfi deyil...".**

*Bunu "Şərq"ə siyasi şərhçi Asif Nərimanlı deyib. Ekspert bildirib ki, İrəvan Qazaxıstan hadisələrinə yeni fürsət kimi baxır:* "Ermənistanın Təhlükəsizlik Şurasının baş katibi Armen Qriqoryan iki gün öncə Qazaxıstan hadisələri haqda danışarkən bildirib ki, "KTMT ilk dəfə böhranlı vəziyyətə müdaxilə mexanizmlərini işə saldı... Biz ümid edirik ki, Ermənistan belə bir vəziyyətlə üzləşəcəyi təqdirdə bu cür köməyi ala biləcək". İki gün sonra Ermənistan Kəlbəcər istiqamətində atəşkəsi pozur və bunun İrəvanın KTMT-ni - Rusiyanı Azərbaycanla sərhədə cəlb etmək cəhdi olduğu aydın görünür". Analitik xatırladıb ki, Ermənistan sərhədlə bağlı razılaşmanı qəbul etmək istəmirdi: "Yalnız 16 noyabr döyüşlərindən sonra Soçidə bunu qəbul etməyə məcbur oldu. Qazaxıstandakı hadisələr və KTMT-nin ilk dəfə üzv ölkələrində prosesə müdaxiləsini Ermənistan "yeni fürsət" kimi dəyərləndirir. Sərhəddə yeni toqquşmalarla "Ermənistan ərazisinə müdaxilə" görüntüsü yarada və KTMT-nin bölgəyə gəlişinə zəmin hazırlaya bilər. Mərkəzi Asiyadan fərqli olaraq, Putinin Cənubi Qafqazdakı razılaşmaları təhlükə altına atması ehtimalı zəif görünür. Lakin Paşinyan Ermənistanın KTMT-yə rəhbərliyindən və təşkilatın "ilk müdaxilə" presedentindən istifadə edərək, ən azı sərhəd razılaşmasında Rusiyanın dəstəyini əldə etmək və qazanclı çıxmaq istəyir. Ermənistanın bu məqsədlə sərhəddə hücumları intensivləşdirəcəyi və genişləndirəcəyi istisna deyil...".

**İsmayıl**



**Ötən ilin söhbətidi. Dostumuz, həmkarımız Rasim Mədəd Vətəni Qubadlıya səfər etmişdi. Doğma kəndi ilə, 28 il əvvəl çıxdığı evlə görüşüb qucaqlaşmışdı. İstədik, o görüş barədə danışsın. Məlum məsələdi. Sözlə ifadəsi mümkünsüz olan hisslərdir və bu hissləri sözə çevirib danışmaq ağırdan da ağırdı. Yenə də cəhd etmək istəyirdik. Biz - Qarabağı diri gözlə görməyənlər (hələ ki) onu qarabağlı soydaşlarımızın danışıqları ilə "gəzirik", haqqında eşitdiyimiz, ekranda gördüyümüz gözəlliyinə bir daha canlı söhbətlər vasitəsilə heyran qalırıq. Yenidən, təkrar-təkrar aşiq oluruq. Çox olub belə müsahiblərimiz.**

# "Adam bilmir ağlasın, yoxsa sevinsin"

## Rasim Mədəd: "Vaxtilə top-top oynadığım həyətimizdə qoşqulu hərbi top qoyulmuşdu"

*Bu fikirdəydik ki, həmkar dostumuz, sabiq "7 Gün"çü, hazırda isə Azərbaycan Dövlət Televiziyasının əməkdaşı Rasim Mədəd - İsmayılov Rasim Mədəd oğlu - onlardan biri olsun. Amma alınmadı. Rasim müəllim dedi ki, "indi yox. Vaxtı deyil". Səbəbini də belə izah etdi ki, Qubadlı və doğma kəndi Poladlı haqqında Azərbaycan Dövlət Televiziyasında veriliş hazırlanır. Çəkilişlərlə məşğuldur. "Çəkilişlər bitsin, redaksiyaya gələcəm", dedi. O gün dünənmiş. Qismət yanvarın 11-nəymiş. Rasim müəllim gəldi və onunla Qubadlı seyrinə çıxdıq. Niyə məhz yanvarın 11-i? Səbəbsiz deyilmiş;*

- İstəyirəm, bu müsahibə bir növ, hesabat xarakterli olsun...

*(təklif maraqlı gəldi)*

**- Hansı mənada, Rasim müəllim?**

- Sabah - yanvarın 12-si mənim həyatdan iki "5" aldığım gündür...

*(etiraf edim, əvvəlcə anlamadım: necə yəni iki beş?!)*

- Sabah 55 yaşım tamam olur...

**- Aa... Nə yaxşı... İndi anladım... Olsun. Nə deyirik.**

- Özüm belə istədim. O vaxt siz mənə müraciət edəndə, düşündüm ki, 55 yaşımın tamamında hesabat xarakterli müsahibə təşkil edərik. Həm də, özümə söz verdim ki, indiyədək heç kəsə, heç bir yerdə danışmadığımı "Şərq"ə danışacam. 28 ildir bunu ürəyimdə saxlayıram...

**- Onda başlayaq. Vaxt yetişdi...**

- ... Bir az uzaqdan başlayım... Emin müəllim *("7 Gün"ün baş redaktoru Emin Eminbəylini nəzərdə tutur)*, redaksiyada kimin ad günü olurdusa, zarafat edib deyirdi "sən bu yaşa necə gəlib çıxmısan?!". Mən də Emin müəllimin sualını özümə verirəm ki, ay Rasim, 55 yaşa necə gəlib çıxmısan?!. Mən 10 yaşına kimi Qubadlının Poladlı kəndində yaşamışam. Kəndimiz rayon mərkəzindən uzaq olduğu üçün ailəmiz sonra Xudular kəndinə köçdü. Poladlı kəndi şahsevənlər tayfasının adıyla bağlıdı. Bu, tarixi məsələdir. Çox uzatmaq istəmirəm. XIX əsrin əvvəllərində şahsevənlərin bir qolu olan poladlılar 800 alaçıqdan ibarət olub. Onlardan bir hissəsi Azərbaycana - 4 alaçıq isə Bərgüşad mahalına (sonralar Qubadlı adlandı) köçüb, Dəmirçilər kəndində məskunlaşıblar. Bir müddət sonra isə Kosa dağın ətəklərində oturaq həyat tərzinə keçiblər və sairə. Poladlıların bir hissəsi Ağdama, Ağcabədiyə, Şamaxıya, Tərtərə... köçüb, ümumilikdə 6 bölgədə məskunlaşıblar. Bu yerlərin hamısında Poladlı adında kənd var.

**- Sözünü kəsim, maraqlı gəldi, bu şahsevənlər tayfası Şah İsmayıla, Səfəvilərə bağlıdı?**

- Bəli. Daha dəqiq, I Şah Abbas zamanına. Bu, uzun söhbətdi. Mən "Ruhumun Vətəni" kitabımda bu haqda geniş yazmışam. Tarixi faktlar əsasında. Toponimlər, dialekt, şivə sözlər... tayfalar, onlardan ayrılan qollar... hamısı barədə yazılıb. Əsas nəyi demək istəyirəm. Mən jurnalist yox, rəssam olmalıydım!..

*(Hə, hesabatın nüvəsi, deyəsən budu. "Rəssam olmalıydım", etirafını kədərli dedi Rasim müəllim. Elə bil kimsə onu rəssam olmağa qoymamışdı, önünü kəsmişdi. Söhbət boyunca bu məlum olacaqdı, kimdi o şəxs. Bəlkə də taleyin yazısıymış. Baş verən hadisələr, arzuları yarımçıq qoyan müharibə, işğal...)*

***Rasim Mədəd qısa fasilədən sonra davam etdi:***

- Elə vurulmuşdum bu sənətə, elə bağlanmışdım... İlk rəsmim atamın aldığı "Əlifba" kitabındakı ceyran şəklini çəkmək olub. Ceyranın şəklini çəkmişdim. Qəşəng alınmışdı. O həvəslə də şəkil çəkməyə davam etdim. Təsəvvür edin ki, məktəbimizin dəhlizində divara mənim çəkdiyim rəsmlər vurulurdu. Yəni ilk sərgilərim orta məktəbdə oxuyarkən keçirilib. Məktəbdə mən rəssam kimi tanınırdım. Günlərin bir günü qapımızda bir maşın dayandı. Bir adam gəldi, dedi ki, onu rayonun birinci katibi göndərib, katib məni görmək istəyir. Rayonun katibi Zöhrab Məmmədov idi. Katib tapşırıb ki, əl işlərini də gətirsin. Mən də şəkilləri yığdım qovluğa, sevinə-sevinə mindim maşına, getdik "raykom"a. Uşaq idim, nə bilirdim, "raykom" kimdi, nə deməkdi. Üzbəüz əyləşmişdim, katiblə. Qovluğu aldı, çəkdiyim şəkillərə baxdı. Sizə deyim ki, o şəkillərin arasında Şuşanın da rəsmi vardı. Hansısa jurnalda görüb çəkmişdim. O şəkilləri indi də saxlayıram. Maraqlıdı ki, Şuşanın şəklinə baxandan sonra katib qalxdı ayağa, keçdi pəncərənin önünə, bir siqaret yandırdı və mənə elə gəldi ki, köks ötürdü...

**- Bu, neçənci illər idi?**

- 7, ya 8-ci sinifdə oxuyurdum. Təxminən 1982 olardı... Düşünürəm, bəlkə elə o vaxt da Şuşa, Qarabağ məsələsi varmış, o da rayonun katibi idi, bəlkə nələrsə bilirmiş, hansısa məlumatlar varmış... Nəysə, qayıtdı mənə ki, indi sən məndən nə istəyirsən? Əslində o məni çağırmışdı. Mən də uşaq düşüncəsiylə dedim ki, rəssam olmaq istəyirəm. Dedi, partiya komitəsi adından sənə göndəriş verək, Rəssamlıq məktəbinə imtahansız qəbul olunacaqsan. Amma bu şərtlə ki, təhsilini bitirdikdən sonra qayıdıb rayonumuzda işləyəsən. Beləcə, "raykom"un göndərişi əsasında gəldim Ə.Əzimzadə adına Dövlət Rəssamlıq məktəbinə. O vaxt bir neçə fəndən imtahan götürülürdü, ixtisasdan da həmçinin. Mən yalnız ixtisasdan imtahan verdim və qəbul olundum. Çox həvəslə oxuyurdum, sinif nümayəndəsi idim. Diplom işini də hamıdan tez bitirib təhvil vermişdim. Direktorumuz dedi ki, yoldaşlarına da kömək elə, onlar da tez bitirsinlər işlərini. Diplom müdafiəsində Mikayıl Abdullayev, Vidadi Nərimanbəyov - Toğrul Nərimanbəyovun qardaşı, başqa hansısa rəssam da vardı, onlar qiymət yazırdı. Nəysə, mənə "4" yazdılar. Amma kömək elədiyim tələbələr "5" aldı. Etiraz elədim ki, komissiya baxsın işimə. Direktorumuz mənə dedi ki, tutalım sənə "4"ü Vidadi müəllim yazıb. Nə o, nə də başqası yazılan qiyməti dəyişməyəcək. Komissiyanı qoy kənara. Gəl, səni Leninqrada təhsilini davam etdirməyə göndərək. Göndərişlə. İmtahansız qəbul olarsan. O vaxt Leninqradda - indiki Sankt-Peterburq - Rəssamlıq Akademiyası vardı. Repin adına. Deyəsən, sonra Rusiya Rəssamlıq Akademiyası oldu. Nəysə, görünür, məni ovundurmaq istəyirdi. İpə-sapa yatmadım. Cavanlıqdı da. İncimişdim... "4" qiymətı mənə yaman pis təsir etmişdi. Elə bil küsdüm rəssamlıqdan. Getdim, hərbi komissarlığa, ərizə yazdım ki, hərbi xidmətə getmək istəyirəm... Belə, rəssamlıqdan müvəqqəti uzaqlaşdım.



**- Tələbəlik illərində yəqin xeyli rəsm əsərləriniz olub...**

- Bəli... Üzeyir Hacıbəylinin 100 illiyinə "O olmasın bu olsun" komediyasına reproduksiya çəkmişdim. Vəcihə Səmədova adına Sərgi Salonunda nümayiş olunurdu. Sonra bildim ki, bu əsər Mədəniyyət Nazirliyinin Qızıl Fonduna daxil edilib. Moskvada Qış Olimpiya Oyunları keçiriləndə tələbə-rəssamların əl işlərindən ibarət sərgi üçün rəsm əsəri çəkmişdim, o əsər də Moskvada II yerə layiq görülmüşdü.

**- Leninqrad *(Sankt-Peterburq)* məsələsi necə oldu, "yola gəlmədiniz"?**

- Hərbi xidməti bitirdikdən sonra rayona qayıtdım, 3 il yaradıcılıqla məşğul oldum. Ora daxil olmaq üçün gərək rəsm əsərlərinin sərgisi keçirilmiş olsun. Sərgidə də azı 30 əsər olmalıdır. Buna çalışırdım. Artıq Bakıda işləyirdim, amma hər dəfə kəndə gedəndə, rəsmlə məşğul olurdum. Mənzərələr, qalaları... çəkirdim.

**- Bakıda qəzetdə çalışırdınız?**

- Jurnalistikaya gəlişim "Kino" qəzetindən başlayıb. Dostum var, Mehdi Mükərrəmoğlu. O, mənə dedi ki, "Kino" qəzeti üçün karikaturalar çəkə bilərsən? Belə başladım, qəzetdə çalışmağa. Karikaturaları Emin müəllim də görüb, sonra o, məni "7 Gün"ə dəvət etdi. Orda da həm karikaturalar çəkirdim, həm də məsul katib idim. Artıq Qarabağ münaqişəsi başlamışdı. Kənddə müdafiə batalyonuna yazılmışdım, kəndimizin müdafiəsinə qoşulmuşdum, həm də cəbhə bölgəsindən "7 Gün" üçün reportajlar yazırdım, material hazırlayırdım. Kəndimizdə sıldırım qayanın üzərində qala var. "Keşikçi qalası" da deyirdilər. (İşğaldan sonra həmin qala tamamilə dağıdılıb) O qalanın şəklini çəkirdim. Ümumiyyətlə, kəndimiz sıldırım qayaların əhatəsindədi. Kosa dağ, Alzabəyin yalı, Güney Qaya, Ala Qaya... Dağlar, qayalar silsilə kimi uzanır. Mən məhz bu dağ silsiləsini, qayanın başındakı qalanı çəkirdim... Avqustun 27-si məni təcili Bakıya çağırdılar. O işim yarımçıq qaldı. Bakıya gəldim. 1993-cü il avqustun 31-i ermənilər Qubadlını işğal etdi... Kəndimizlə bərabər sərgiyə hazırladığım 30-dan çox əsərim də işğal olundu... Mənim Akademiya sevdam da belə başa çatdı.

**- Rəsmlərinizin hamısı qaldı Qubadlıda?**

- Yox. Daha doğrusu, hamısı qaldı, bircə o yarımçıq işimdən savayı. Xəbər gəldi ki, atam, anam Bakıya gəlir, bir qohumumuzun maşınıyla. Emin müəllim də maşın verdi ki, get, ata-ananı qarşıla. Onları qarşılayanda gördüm ananım əlində bir tablo, bir də "etüdnik"... Baxdım, mənim yarımçıq qalan işimdi. Dedim, ay ana, bu nədi? Gətirirdin, heç olmasa hazır işlərdən gətirəydin... Mənə dedi ki, özüm bu işi gətirdim, ona görə ki, sən qayıdıb onu tamamlayasan... Onlar evdən heç nə götürməmişdilər. Anam ancaq bu yarımçıq əsəri götürmüşdü... Mən 28 il o "etüdnik"in qapağını açmadım. Rənglər ordaca qurudu, daşa döndü. Daş ürəklər kimi. Nə qədər çalışdım işləyim, tamamlayım, bacarmadım... Yarımçıq əsər evimizin divarında asılı qaldı.

**- İşğal bitdi. Ananızın arzusunu inşəllah yerinə yetirərsiniz...**

- İnşəllah.

**- 28 il ərzində ümumiyyətlə, heç nə çəkmədiniz?**

- Xırda-para işlər olurdu. Həvəsi öldürmək üçün. "7 Gün"də çalışmağa davam etdim. Jurnalistika kurslarına getdim. Guya ki, jurnalist oldum... "7 Gün"dən sonra bir müddət "3 Nöqtə" qəzetində işlədim. Belə deyim, "7 Gün"nün taleyindən bəhs edən "3837 gün" kitabım nəşr olundu. Bunlar hamısı fikrimi rəssamlıqdan yayındırmaq üçün idi. Televiziyada çalışdım. "Ruhumun Vətəni" kitabım çap olundu. Çox iş gördüm. Amma... rəssam ola bilmədim!..

**- Niyə elə deyirsiniz, siz rəssamsınız da...**

- Yox, peşəkar rəssam olmaq üçün gərək çox işləyəsən. 2000-ci illərdə bir qeyri-hökumət təşkilatından təklif gəldi ki, Azərbaycan rəssamı ilə erməni rəssamının birgə rəsm əsəri olsun. Belə ki, mənim çəkdiyim əsəri erməni rəssam tamamlayacaqdı, ya da mən onun hansısa əsərini. Guya xalqlar arasında mədəni yaxınlaşma, əməkdaşlıq, filan... Razılaşmadım. Dedim, erməni kimdi ki, mənim əsərimi tamamlaya. "Yaxınlaşma" istəyirsiniz, mənim başqa təklifim var. Aparın bizi Qubadlıya, mən orda yarımçıq əsərimi tamamlayım, erməni də istədiyi rəsmi çəksin. Mütəxəssislər rəy versin, kimin rəsmi yüksək qiymət alacaqsa, deməli o torpağın sahibi odur.

> "Təklif gəldi ki, mənim çəkdiyim əsəri erməni rəssam tamamlayacaq, razılaşmadım. Dedim, erməni kimdi ki, mənim əsərimi tamamlaya. "Yaxınlaşma" istəyirsiniz, mənim başqa təklifim var..."

Mən qəti əminəm ki, dünyanın ən məşhur rəssamı olsun, yenə bizim rəssamlardan geri qalacaq. Çünki bizim rəssamlar Vətən torpağını çəkəcək, onlarsa, işğal etdikləri torpağı. Razılaşmadılar. Razılaşmazlar axı...

**- Qubadlıya səfərinizdən də danışın...**

- Gedənlər doğru deyir ki, orda yaşanan hissləri sözlə ifadə etmək mümkün deyil. Həqiqətən belədir. Bilirsiz, rayona gedənə qədər əmin idim ki, hər cığırı, dərəni tanıyacam. Evimizin yeri ovcumun içi kimi yadımdadır... Təsəvvür etməzsiniz, qardaşımın evini tapa bilmədim... Hər şey, hər yer o qədər dəyişib ki!.. Çayın kənarları da, meşə də, bulaqlar da. Cığırı tapa bilmirsən, hər yer dağılıb, itib-batıb otun içində. Üstündə əyləşib rəsm çəkdiyim böyük qaya parçası da yoxdu. Yerə batıb, göyə çıxıb, bilmirəm... Vaxtilə top-top oynadığım həyətimizdə qoşqulu hərbi top qoyulmuşdu... Sizə bir şey deyim, kəndi kənd edən onun insanlarıdı. Mal-qarası, bağı-bağçası, çəpərdi. Bunlar yoxdursa, kənd, kənd deyil. Çox ağır hisslərdi. Adam bilmir, ağlasın, yoxsa sevinsin. 5 saatlıq yol idi. Elə bil, 1 saata çatdıq Qubadlıya. Yol getdikcə, təəccüb, heyrət məni bürüyürdü ki, bizim əsgərlər bu yolları necə keçib? Çiyinlərində 50 kiloluq yüklə elə hey irəli gediblər, dayanmayıblar. İnsan ayağı dəyməyən yerlərdə səngər qazıblar. İnsan qəribə hisslər keçirir. Düşünürsən ki, indi sənin keçdiyin yollardan əsgərlərimiz keçib. Bu torpaqlar şəhidlərimizin qanı bahasına azad edilib... Ancaq yolboyu aparılan quruculuq işləri insana böyük təsəlli verir...

Yola çıxanda çox tələsirdim ki, Lələtəpəni görüm. Horadizdən Lələtəpəyə çox geniş bir ərazidir. Aprel döyüşlərində ordumuz böyük bir ərazini nəzarətə götürübmüş deməli. Mənə yuxu kimi gəlirdi. İstəyirəm, bir dəfə də gedim, sərbəst, arxayın. Əyləşim bir daş üstündə, düşünüm, xəyala dalım...



*"Atam, anam Qubadlıdan köçkün düşəndə ancaq mənim yarımçıq qalan rəsm əsərimi götürmüşdülər. Dedim, ay ana, bu nədi? Gətirirdin, heç olmasa hazır işlərdən gətirəydin... Mənə dedi ki, özüm bu işi gətirdim, ona görə ki, sən qayıdıb onu tamamlayasan..."*

**- Dediyiniz filmin çəkilişləri də həmin səfər zamanı oldu?**

- Dövlət Televiziyasında "Vətənimiz Azərbaycan" layihəsi var. Müxtəlif bölgələrdə çəkilişlər aparılır. Təklif etdim ki, bu dəfə Qubadlıya gedək. Kəndimizdə 18 ev vardı. Həmin ailələrin üzvlərini tapdım. Onları da özümüzlə apardıq. Hərəsi öz həyətində əyləşib danışdı...

**- Yaşlı insanlardı?**

- Yaşlılar az qalıb. Birinin 95, birinin 85 yaşı var. Onları aparmağa risk etmədik, həyəcan keçirərlər, nəsə baş verər...

**- Deyirsiz, öz evinizi gördünüz. Necə idi?**

- Divarlar da qalmayıb. Bünövrə güclə hiss olunur... Vaxtilə sərgilər keçirdiyim məktəbin yeri də heç bilinmirdi. *(fikrə dalır...)* Həyətimizdə atamın düzəltdiyi səhəngi tapdım. Atam dəmirçi idi...

**- Bayaq ananızın yarımçıq qalmış rəsm əsərinizi gətirdiyini danışırdınız. Rasim müəllim, fikir vermişəm, köçkün düşmüş insanlarımızın hamısında doğma torpağa qayıdacaqlarına əminlik olub. Məsələn, evdən çıxanda fikirləşiblər, hansısa əşyanı götürməyək, onsuz da qayıdacağıq...**

- Bəli, elədi. Siz də bilirsiniz, torpaqlarımızı işğaldan azad edənlər 27-28 il əvvəl o torpaqlardan körpə, uşaq yaşlarında çıxanlar, hətta dünyaya hələ gəlməmiş körpələr oldu. Mənim qardaşım oğlu 5-6 yaşlarında idi deyəsən, qadınları, uşaqları kənddən çıxarırdılar, *(ermənilər həmişə rayonu atəş altında saxlayırdı)* qaçıb gizlənmişdi ki, getmirəm. Sonra onu tapdıq, ağlayırdı ki, getmək istəmirəm. Deyirdi, məni aparsanız da, qayıdıb gələcəm. Bura yaxşıdı... İnanılası deyil; həmin o uşaq tankın belində Qubadlıya daxil oldu!..

**- Adını qeyd edək?**

- Xəyal Mədədzadə. Kapitandı. Prezidentin sərəncamı ilə Füzulinin, Qubadlının, Şuşanın işğaldan azad olunmasına görə medallarla təltif edildi... Bir də nəyi demək istəyirəm, atam, anam torpaqlarımızın azadlığını görmədilər. Hər ikisi vəfat edib. Bakıda dəfn ediliblər. Məzarlarının üzərində hər il gül əkirdim, çox tez solur o güllər. Qubadlıya gedəndə, kəndimizdən torpaq gətirdim, atam Mədədin, anam Mələyin məzarları üzərinə səpdim. İnanmayacaqsız, növbəti dəfə qəbiristanlığa gedəndə gördüm güllər açıb, pərvazlanıblar. Torpaq gülə-çiçəyə nəfəs verib. Canlanıblar. Vətən torpağı nələrə qadirmiş...

*(sonra fasilə verib, " hesabatımı verdim", dedi. Biz də 55 yaşının tamam olması münasibətilə Rasim Mədədi təbrik etdik)*

- 55 fərqli rəqəmdi. Həyat insana yalnız bir dəfə iki "5" yazır. Bu, daha heç vaxt təkrarlanmır...

**- İki "5" təkrarlanmayacaq, əvəzində iki "6" ola bilər, iki "7" olar... Allah can sağlığı versin. İnşəllah, qismət olar, 66-da, 77-də də müsahibələr verərsiniz. Yarımçıq rəsminizi də tamamlayacaqsınız, yəqin.**

- Şübhəsiz!.. Arzum var ki, o əsəri tamamladıqdan sonra cənab Ali Baş Komandana, Prezidentə təqdim edim.

**Söhbətləşdi: Məlahət Rzayeva**

# Nazarbayev "geopolitik əməliyyat"la uzaqlaşdırıldı

## İlk baxışdan, Qazaxıstan faciəsinin senari müəllifləri öz hədəflərinə hələlik çatmış kimi görünürlər



**Türk Dövlətləri Təşkilatı (TDT) Xarici İşlər Nazirləri Şurasının Qazaxıstanda baş verən son hadisələrlə bağlı növbədənkənar iclası başa çatıb. Türkiyə Xarici işlər naziri Mövlud Çavuşoğlunun sədrliyi ilə keçirilən iclasda Qazaxıstanın Baş nazirinin müavini və xarici işlər naziri Muxtar Tileuberdi, Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov, Qırğızıstanın Xarici işlər naziri Ruslan Kazakbayev, Özbəkistanın Xarici işlər naziri Abdulaziz Kamilov, Türkmənistanın Baş nazirinin müavini və xarici işlər naziri Raşid Meredov, Macarıstanın Xarici işlər və ticarət naziri Peter Siyarto və Türk Dövlətləri Təşkilatının Baş katibi Bağdad Amreyev çıxış ediblər.**

İclasın sonunda Türk Dövlətləri Təşkilatı Xarici İşlər Nazirləri Şurasının adından bəyanat qəbul olunub. Bəyanatda Qazaxıstanda baş verən hadisələrdə həyatını itirənlərə başsağlığı verilib və yaralananların tezliklə sağalması arzulanıb. Təşkilatın üzvü olan Qazaxıstana və onun qardaş xalqına güclü dəstək və həmrəylik bir daha təsdiqlənib. Eyni zamanda, "Türk Dünyasına Baxış 2040" sənədinin milli və beynəlxalq çağırışlar qarşısında koordinasiya, əməkdaşlıq və qarşılıqlı yardım üçün bələdçi olduğuna diqqətə çəkilib. Təşkilat hazırkı böhrandan çıxmaq üçün lazım gələrsə, Qazaxıstan xalqını və hökumətini dəstəkləməyə hazır olduğunu bir daha təsdiqləyib. Habelə Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin qardaş Qazaxıstan xalqının güzəranının və rifahının daha da yüksəlişinə yönəlmiş islahat gündəliyi dəstəklənib. Türk Dövlətləri Təşkilatının Xarici İşlər Nazirləri Şurası bu məsələdə sıx əməkdaşlığı və məsləhətləşmələri davam etdirməyi qərara alıb.

Türk dövlətlərinin Qazaxıstana hər cür yardıma hazır olduğunu bəyan etməsi və onu dəstəkləməsi türk dünyasında xoş qarşılanıb. Bu, birliyin və qardaşlığın simvolu kimi qiymətləndirilib. Amma bir qisim insana görə bu görüş gecikib.

***"Vaxt gələcək ki, Türk Dövlətləri Təşkilatı həqiqətən real beynəlxalq siyasi iradə mərkəzinə çevriləcək"***

**Görüşü "Şərq"ə şərh edən politoloq Elçin Xalidbəyli qeyd edib ki, əslində, ilk baxışdan Türk Dövlətləri Təşkilatının Qazaxıstanda baş verən hadisələrə reaksiyası bir qədər gecikmiş kimi görünür:**

"Ancaq hadisələrin başladığı ilk günlərdə Türk Dövlətləri Təşkilatının konkret reaksiya verməsi müəyyən mənada, bir qədər çətin idi. Çünki Qazaxıstan olaylarının arxasında hansı xarici gücün dayandığı məlum deyildi. Əgər o vaxt münasibət bildirilsəydi, Türk Dövlətləri Təşkilatı ya Qazaxıstan hakimiyyətinin, ya da qazax xalqının tərəfində durmuş olacaqdı. Bu isə Qazaxıstanın daxili işlərinə müdaxilə kimi qəbul oluna bilərdi. Yalnız indi məlum olur ki, baş verənlərin necə törədildiyini Rusiya və Belarus prezidentləri daha dəqiq bilirmiş. Artıq bütün baş verənlərin ölkə kənarından idarə olunduğu və Qazaxıstan Təhlükəsizlik Şurasının sədri Nursultan Nazarbayevin hakimiyyətdən kənarlaşdırılması məqsədi daşıdığı şübhə doğurmur. Belə anlaşılır ki, Qazaxıstan faciəsini törətməkdə əsas məqsəd KTMT-nin bu ölkəyə beynəlxalq hüquq normalarına zidd şəkildə də olsa, qoşun yeritməsinə bəhanə qazanmaq olub. Yəni Türk Dövlətləri Təşkilatında daha fəal mövqe tutmağa çalışan, Qazaxıstanın Qərblə yaxınlaşmasına cəhd göstərən Nursultan Nazarbayevi siyasi səhnədən çıxartmaq məqsədilə bir "geopolitik əməliyyat" reallaşdırıldı".

**Politoloqun qənaətincə, ilk baxışdan, Qazaxıstan faciəsinin senari müəllifləri öz hədəflərinə hələlik çatmış kimi görünürlər:**

"Nursultan Nazarbayev artıq hakimiyyətdə deyil, Qazaxıstan da Rusiya və KTMT-dən asılı vəziyyətə salınıb. Ona görə də Türk Dövlətləri Təşkilatından bu hadisələrə daha operativ və fərqli nəticələrə hesablanmış reaksiya gözləmək bir qədər sadəlövhlük xarakteri daşıyır. Çünki bu qurum hazırda yeni təşkilatlanma mərhələsindədir, iqtisadi-ticari əməkdaşlıq modelinə malikdir. Yəqin ki, yaxın gələcəkdə Türk Dövlətləri Təşkilatının hərbi-siyasi ortaq modelinin də tapılmasına ehtiyac olacaq. Böyük ehtimalla Türk Dövlətləri Təşkilatının XİN rəhbərlərinin növbədənkənar toplantısında Qazaxıstan hadisələri ilə bağlı müəyyən geopolitik mesajlar verilə bilər. Ancaq bu mesajların ümumi məzmun daşıya biləcəyi də qətiyyən istisna deyil. Yəni Qazaxıstan dövləti və qazax xalqı ilə həmrəylik məzmunu daşıyan ümumi bəyanatın yayılması gözlənilir".

**E.Xalidbəyli hesab edir ki, Türk Dövlətləri Təşkilatı gələcəkdə real beynəlxalq siyasi iradə mərkəzinə çevriləcək:**

"Onu da unutmaq olmaz ki, Türk Dövlətləri Təşkilatı hazırda əslində, real olaraq, sadəcə, Türkiyə-Azərbaycan ittifaqının ətrafında formalaşdırılma mərhələsində olan bir qurumdur. Və hələlik geopolitik manevr imkanları elə də geniş deyil. Ancaq vaxt gələcək ki, Türk Dövlətləri Təşkilatı həqiqətən real beynəlxalq siyasi iradə mərkəzinə çevriləcək. Qazaxıstan hadisələrinə də müəyyən mənada, Türk Dövlətləri Təşkilatının gələcək perspektivlərini indidən bloklamaq cəhdlərindən biri kimi yanaşmaq olar".

**Çimnaz ŞAHLAR**

# Qazaxıstandan sonra Özbəkistan hədəf götürülüb

## Lukaşenkonun dili ilə Daşkəndə demək istəyirlər ki, "əgər bizimlə olmasan", ölkəndə xaos, vətəndaş qarşıdurması yaşanacaq



**Belarus Prezidenti Aleksandr Lukaşenko Özbəkistan hökumətinə səslənib. Lukaşenko bildirib ki, Özbəkistan Qazaxıstanda baş verən hadisələrdən nəticə çıxarmalıdır.**

Belarus prezidenti iddia edib ki, əgər rəsmi Daşkənd nəticə çıxarmasa, Qazaxıstandakı kütləvi etiraz aksiyalarının təşkilatçılarının baxışları Özbəkistana yönələcək. Lukaşenkoya görə, Qazaxıstan və ümumilikdə Mərkəzi Asiyanın postsovet respublikaları ətrafında vəziyyəti gərginləşdirmək istəyən çox sayda qüvvə cəmləşib: "Qazaxıstanla sərhəddə çoxlu sayda beynəlxalq terrorçu toplanıb. Postsovet respublikalarında bu mənfi tendensiyaları aradan qaldırmaq üçün, indiki halda Qazaxıstanda olan problemi yalnız Qazaxıstan çərçivəsində həll etmək kifayət etmir. Gördüyümüz kimi, ən yaxın xalqlar - qazaxlar və qırğızlar postsovet dövründən miras qalmış və yaradılmış çətin problemləri birlikdə həll etməyə çalışmalıdırlar". Özbəkistanın Tədqiqat Təşəbbüsləri Mərkəzinin direktoru Mano Bəxtiyar Yerqaşev bildirib ki, ölkənin terror qruplaşmalarının hücumlarını dəf etmək təcrübəsi var. Onun sözlərinə görə, Özbəkistanda vəziyyəti ayıq və sakit şəkildə qiymətləndirirlər və başa düşürlər ki, ölkədə "yatmış" terrorçu və ekstremist hüceyrələr var: "Güclü və koordinasiyalı bir hərəkat olarsa, o zaman kömək lazım ola bilər. Amma KTMT-yə qayıtma ehtimalı azdır. Özbəkistan KTMT-yə deyil, 2005-ci ildə müttəfiqlik münasibətləri haqqında müqavilə imzaladığı ölkəyə üz tutacaq. Bu isə Rusiyadır". Yerqaşev qeyd edib ki, Özbəkistanda Qazaxıstandakı vəziyyətdən fərqli olaraq, elita daxilində ciddi ziddiyyətlər yoxdur.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib ki, Qazaxıstandan sonra Özbəkistanı hədəf götürüblər. Ekspertin fikrincə, Lukaşenkonun diliylə Daşkəndə demək istəyirlər ki, "əgər bizimlə olmasan, Qazaxıstanda olduğu kimi Özbəkistanda da xaos və vətəndaş qarşıdurması yaşanacaq". Analitik xatırladıb ki, 17 il əvvəl Özbəkistanda Qazaxıstandakına bənzər olaylar - Əndican şəhərində olmuşdu:** "Özbəkistanın keçmiş prezidenti İslam Kərimov heç kimdən dəstək istəmədən etirazı yatırtdı. Doğrudur, bu zaman müxtəlif mənbələrə görə, Qazaxıstanda olduğu kimi Özbəkistanda da yüzlərlə insan həlak oldu. Bunun nə qədərinin radikal element, nə qədərinin dinc etirazçı olduğu indiyənə qədər bəlli deyil. Hər halda İslam Kərimov Tokayev kimi Moskvaya müraciət edib ölkəsinin müstəqilliyini təhlükə altına atmadı. Ancaq indi Moskva Daşkəndi xəbərdar edir ki, Qazaxıstandan sonra Özbəkistanda da etirazlar və bunun ardınca silahlı toqquşmalar başlayacaq. Məqsəd Özbəkistanı da təşkilata üzv edib üzvlərin sayını çoxaltmaqdır".

*E.Şahinoğlu xatırladıb ki, gələn xəbərlərə görə, Özbəkistan Prezidenti Şövkət Mirziyoyev Qazaxıstan hadisələrinin fonunda polis və ordunun gücləndirilməsi istiqamətində addımlar atıb:* "Deyilənə görə, yerlərdə məmurların fəaliyyətləri nəzarət altına alınıb. Özbəkistanda sosial problemlər Qazaxıstandan az deyil. Ona görə heç nə istisna edilmir. Bir ay əvvəl kimsə Qazaxıstanın qarışacağını və bu ölkəyə kənar hərbi müdaxilənin reallaşacağını proqnozlaşdıra bilməzdi".

**İsmayıl Qocayev**



# Turan birliyi Rusiyanın, Avropanın yuxusunu qarışdırıb

## Qazaxıstan hadisələri göstərdi ki, türk dövlətlərinin inteqrasiyası prosesini sürətləndirmək lazımdır

**"KTMT-nin Qazaxıstana girməsini kövrək Turan birliyinin "çöküşü", Türk Dövlətləri Təşkilatının iflasa uğraması kimi qələmə vermək olmaz". Bunu "Şərq"ə açıqlamasında Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov deyib. Partiya rəhbəri bildirib ki, Qazaxıstanın gələcək taleyi Kremldən, Çindən və ya Qərbdən yox, ilk növbədə qazax xalqının öz iradəsindən asılı olacaq: "Rus qoşunlarının Qazaxıstana kobud müdaxiləsi hər şeyin sonu anlamına gəlməməlidir.**

Müxtəlif qorxunc senariləri dövriyyəyə buraxıb, tirajlamaqla özümüzdə xof, qorxu hissi yaratmamalıyıq. Hazırkı situasiyada nə SSRİ-nin yenidən bərpası realdır, nə də Turan birliyinin formalaşması prosesinin qarşısının alınması mümkündür. Əlbəttə, buna müəyyən cəhdlər olacaq. Rusiya, ABŞ, Çin və Avropa Birliyi arasında getdikcə daha da kəskinləşməkdə olan rəqabət və qarşıdurmalar həm də Turan birliyinin yeni geosiyasi güc mərkəzi kimi ərsəyə gəlməsini əngəlləmək niyyətindən qaynaqlanır. Onlar Turan birliyini özləri üçün ciddi maneə kimi, potensial rəqib kimi görürlər. Bu baxımdan TDT-nin güclənməsinin qarşısını almaq üçün bənzər olayların, Qazaxıstan hadisələrinin fərqli versiyalarda təkrarlanmasının şahidi ola bilərik. O baxımdan bu kimi hallara qarşı bəri başdan hazırlıqlı olmalıyıq, gərəkən önləmləri almalıyıq".

*Ə.Hüseynov qeyd edib ki, Qazaxıstan hadisələri göstərdi ki, türk dövlətlərinin inteqrasiyası prosesini sürətləndirmək lazımdır:* "Bu ölkələrin həm siyasi, həm də iqtisadi və hərbi müstəvidə daha sıx ittifaqının qurulmasına ehtiyac var. Əgər türk dövlətlərinin KTMT və ya NATO tipində öz hərbi ittifaqı və ya kollektiv müdafiə təşkilatı olsaydı, qardaş Qazaxıstanda sabitliyin təmin edilməsini Nikol Paşinyanın "rəhbərlik" etdiyi qüvvələrə yox, elə öz hərbi birliyimizə həvalə edərdik. Deməli, bundan sonra bu istiqamətdə təcili tədbirlər görülməsinə, "türk NATO-su"nun yaradılmasına zəruri ehtiyac var. Belə bir hərbi ittifaqın özəyini, nüvəsini isə ilk növbədə Türkiyə və Azərbaycanın daha sıx hərbi müttəfiqliyi təşkil edə bilər. Liderlərimizin ötən il imzaladıqları tarixi Şuşa Bəyannaməsi də bunun üçün olduqca əlverişli zəmin yaradır".

**İsmayıl Qocayev**

# "Nazarbayev kənara çəkilməklə Qərbin planlarını zərərsizləşdirdi"

## Araz Əlizadə: "Əgər prezident sülhməramlıların Qazaxıstanı tərk edəcəyini deyirsə, deməli, ölkədə vəziyyət sabitləşmək üzrədir"

**Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının sülhməramlı kontingentinin Qazaxıstandakı əsas missiyası başa çatıb. İki gündən sonra kontingentin ölkədən mərhələli şəkildə çıxarılmasına başlanılacaq. Bu barədə Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev bildirib. Tokayev qoşunların çıxarılmasının 10 günə başa çatacağını deyib. Məlumat üçün deyək ki, Qazaxıstandakı iğtişaşlara görə, 10 minədək insan saxlanılıb, 412 cinayət işi açılıb.**



İttihamlar arasında terror aktları və qətllər də var. Prezident Tokayev yeni hökumətin tərkibini də təsdiqləyib. Parlamentin aşağı palatası yeni hökumətdə təmsil olunacaq nazirlərin tam siyahısını hazırlayıb. Yeni hökumətdə müdafə, daxili işlər və xarici işlər nazirləri öz postunu saxlayıb. Baş nazir postuna isə Əlixan Smailovun namizədliyi irəli sürülüb.

Qazaxıstandakı olaylarla bağlı fikirlər müxtəlifdir. Əksəriyyət Orta Asiyanın ən böyük ölkəsində baş verənlərin Kremlin oyunu olduğunu bəyan etsə də, bunun əksini düşünənlər də az deyil. KTMT-nin tezliklə Qazaxıstandan çıxacağı xəbərini əsas gətirənlərin fikrincə, rusların məqsədi Qazaxıstanda sosial etirazların təşkili üzərindən planlaşdırılan çevrilişin qarşısını almaq, Tokayev hakimiyyətini qoruyub saxlamaq olub. Daha doğrusu, hakimiyyət içərisindəki Qərb şəbəkəsini təmizləmək məqsədi güdülüb. Əsas fiqurlar zərərsiz hala gətirildiyi, Tokayev hakimiyyətinə olan təhlükə aradan qalxdığı üçün rus qoşunları geri qaytarılır.

*Azərbaycan Sosial Demokrat Partiyasının sədri, sabiq deputat Araz Əlizadə də "Şərq"ə açıqlamasında bildirib ki, əsas hədəf Qazaxıstan üzərindən Rusiyanı vurmaq idi. Partiya rəhbərinin sözlərinə görə, məqsəd Moskvanın başını qatmaq, Kremlin diqqətini başqa bölgəyə cəlb etmək idi...*

**- Araz müəllim, Qazaxıstanda qarışıqlıq yaradanların məqsədi nə idi, kimi, hansı ölkəni hədəf seçmişdilər?**

- Rusiya bir müddət öncə NATO-ya ultimatum verdi və öz tələblərini irəli sürdü. Qərb Moskvanın diqqətini konkret Ukraynadan uzaqlaşdırmaq üçün Orta Asiya ölkəsində - Qazaxıstanda qarşıdurma yaratmaqla Moskvanın başını qatmaq istəyirdi. Həm də Rusiyaya mesaj verdilər ki, "nəzarətində olan bölgələrdə, hətta daxilində belə qarışıqlıq yaratmaq imkanımız var". Qazaxıstanın Rusiyanın ən yaxın müttəfiqi olması faktı Qərbə bəllidir. Ancaq NATO-nun planı baş tutmadı. Rusiya vaxtında tədbir gördü və tezliklə vəziyyəti sakitləşdirdi.

**- Qərb deyəndə konkret hansı ölkələri nəzərdə tutursuz?**

- Avropa ölkələri ikinci dərəcəli rol oynayırlar. Bütün addımlar ABŞ tərəfindən atılır. Əsas konflikt Rusiya ilə ABŞ arasındadır. Hazırda Qərbi təmsil edən əsas güc Amerikadır. NATO-nun da aparıcı ölkəsi ABŞ-dır.

**- Amerikanın Qazaxıstanda istədiyi anda qarşıdurma yaradacaq dayaqları varmı? Qazaxıstanda Rusiyanın təsir imkanları daha çoxdur...**

- Qərb heç vaxt heç bir ölkədə öz fəaliyyətini birdəfəlik dayandırmır. Əksər ölkədə Qərbin kəşfiyyatı işləyir. Zənn edirsiz, Azərbaycanda Qərbin dayaq nöqtələri yoxdur?! Bizdə də var. Amma Qazaxıstandan fərqli olaraq Azərbaycanda stabilliyi poza, öz məqsədlərini həyata keçirə bilmirlər.

**- Niyə Azərbaycanda bunu bacarmırlar?**

- Çünki Azərbaycan iqtidarı ağıllı hərəkət edir, düzgün addımlar atır. Nə zaman ki, iqtidar büdrəyir, müəyyən xətaya yol verir, Qərbin dayaq nöqtələri dərhal işə düşürlər. Əgər bizdə də hökumət zəif olsaydı, fürsət düşən kimi fəallaşacaqdılar.

**- Rusiya Prezidenti V.Putinin "Qazaxıstanda "Maydan hərəkatı" planlaşdırılırdı" iddiasını necə dəyərləndirirsiniz?**

- Qazaxıstanda "Maydan hərəkatı" demək olar ki, başlamışdı. Ölkədə silahlı dəstələr meydana çıxmışdılar. İnsanlar bir-birini öldürür, obyektlər, maşınlar yandırılırdı. Hətta müəyyən şəxslər güc strukturlarının nümayəndələrinə belə atəş açırdılar. Bu, açıq-aşkar terrorçuluq idi və terrorçulara qarşı yeganə yol hərbi mübarizədir.

**- Tokayevin Rusiyaya müraciəti ciddi tənqid olundu. Qazaxıstan daxili resursları hesabına qarşıdurmanın qarşısını ala bilməzdimi?**

- Böyük ehtimal bilməzdi. Qazaxıstanda hakimiyyət Nazarbayevdən Tokayevə transfer olunduqdan sonra Nazarbayevin kadrları təşvişə düşmüşdülər ki, yeni prezident təmizləmə prosesinə başlayacaq. Buna mane olmaq üçün müəyyən cəhdlər edilirdi. Qazaxıstandakı məlum hadisələrdən sonra Tokayevin əl-qolu açıldı və hökuməti tam tərkibdə istefaya göndərdi. İğtişaşlar genişləndiyi vaxtda ölkədə faktiki olaraq iş başında olan hökumət yox idi. Rusiyanın müdaxiləsi isə vacib idi.

**- Rusiyanın müdaxiləsi olmasaydı, Qazaxıstanda qarşıdurma dərinləşərdimi?**

- Şübhəsiz. Əgər KTMT Qazaxıstana vaxtında daxil olmasaydı, ölkədə dövlət çevrilişi baş verəcəkdi. Ən əsası isə çoxlu qan axacaqdı. Hərbi təşkilatın ölkəyə çağırılması arzuolunmaz proseslərin qarşısını aldı.

**- Qazaxıstanda Nazarbayev mərhələsi bitmiş hesab olunurmu?**

- Nursultan Nazarbayev Təhlükəsizlik Şurasının sədrliyindən özü istefa verdi ki, Tokayevin əl-qolu açılsın, səlahiyyətləri çoxalsın. Çalışdı ki, ölkədə ikitirəlik, qarşıdurma olmasın. Əks halda ölkə daha çox qarışacaqdı. Bundan istifadə edən kənar qüvvələr Qazaxıstan üzərindən çirkin planlarını reallaşdırmağa başlayacaqdılar. Nazarbayev ağıllı şəkildə kənara çəkilməklə Qərbin planlarını zərərsizləşdirdi.

**- "Hər şey qaydasına düşdü, ölkədə təhlükə aradan qalxdı" deyə bilərikmi?**

- 2 gündən sonra KTMT-nin qoşunları Qazaxıstandan çıxarılacaq. Əgər prezident tərəfindən sülhməramlı kontingentin qısa vaxtda Qazaxıstandan çıxacağı açıqlanıbsa, deməli, ölkədə vəziyyət həqiqətən stabilləşmək üzrədir. Proseslər nəzarətə alınıb, iğtişaşçılar saxlanılıb. Çox güman, yaxın günlərdə hər şey normala dönəcək.

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması

Mələhət Rzayeva



# Qadınların biznes imkanları genişləndirilməlidir

## Gender bərabərliyinə nail olmağın yollarından biri məhz qadınların iqtisadi asılılığını azaltmaqdı

**Gender bərabərliyinin təmin edilməsi Azərbaycan dövlət siyasətinin prioritet sahələrindən biridir. Müsbət hal budur ki, bu məsələdə dövlət orqanları ilə yanaşı qeyri-hökumət təşkilatları da aktivdir və müxtəlif layihələr həyata keçirməklə ilk növbədə qadınlara, o cümlədən dövlət orqanlarına yardım edirlər. Məsələn, bu günlərdə ictimai iki təsisat arasında maraqlı razılaşma əldə olunub.**

Azərbaycan Kənd Qadınları Assosiasiyası və "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyi arasında Memorandum imzalanıb. Memorandum barədə "Şərq"ə məlumat verən "Təmiz Dünya" sədri Mehriban Zeynalova qeyd etdi ki, memorandum çərçivəsində "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyi və Azərbaycan Kənd Qadınları Assosiasiyası gender əsaslı zorakılığa məruz qalmış qurbanların müəyyən edilməsi, təhlükəsizliyin (sığınacaq) təmini, qadın və uşaqların sosial-psixoloji reabilitasiyası, uşaqların təhsili ilə yanaşı onların cəmiyyətə inteqrasiyasına dair müvafiq hüquqi sənədlərin hazırlanmasını və qanunvericilik sənədlərinə təkliflərin hazırlanmasını həyata keçirəcəklər. Azərbaycan Kənd Qadınları Assosiasiyası fəaliyyət göstərdiyi rayonların ərazisində yaşayan gender əsaslı zorakılıq qurbanları olan qadın və uşaqların aşkarlanmasına dəstək verəcək, onların sığınacağa istiqamətləndirilməsini həyata keçirəcək, qadınların iqtisadi güclənməsi üçün ehtiyacları müəyyən edəcək, yerli qurumlara qadınların problemlərinin həlli yönümündə müraciət edəcək, o cümlədən bu kimi məsələləri öz resurslarına daxil olan Qadın İnkişaf və Müəssisə Qruplarının fəaliyyətinə daxil edəcək. Anlaşma Memorandumunun məqsədi zorakılığa məruz qalmış qadın və uşaqların təhlükəsizliyinin təmini, sosial-maddi durumu aşağı olan qadınların sosial problemlərinin həlli istiqamətində "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyi və Azərbaycan Kənd Qadınları Assosiasiyası arasında əməkdaşlığı möhkəmləndirməkdir.

**M.Zeynalova qeyd etdi ki, gender bərabərliyinə nail olmağın yollarından biri, hətta əsas istiqamətlərdən biri qadınların iqtisadi asılılığını azaltmaqdır. Bu məqsədə nail olmaq üçün qadınların biznes imkanları genişlənməlidir. Bu istiqamətdə müəyyən işlər aparılır:**

- Məsələn, kəndlərdə aqrobizneslə məşğul olan fermer qadınlar Azərbaycan Kənd Qadınları Assosiasiyasında birləşir. Kənd Qadınları Assosiasiyası ölkədə Qadın İnkişaf Qruplarının milli şəbəkəsi kimi fəaliyyət göstərir. Təşkilatlanma sayəsində qadınların hazırda fəaliyyət göstərdikləri qruplar güclənir, yeni qruplar da yaranır. Əsas məsələ təşkilatın biznes inkubatorlara dəstək verməsi və rəsmi maliyyə kanallarına çıxışın təmin edilməsidir. Bu, qadınlara öz bizneslərinin həcmini və miqyasını genişləndirməyə imkan verir. Assosiasiyanın özəyi Qadın İnkişaf Qruplarıdır. Qadınların iqtisadi səlahiyyətləndirilməsi üzrə bu innovativ modeli hazırda Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi Dünya Bankı ilə tərəfdaşlıqla həyata keçirilir. İndiyədək 361 qadını özündə birləşdirən 30 Qadın İnkişaf Qrupu yaradılıb. Qadın İnkişaf Qrupları 10-20 qadından ibarətdir. Bu qruplara maliyyə savadlılığı, biznes və həyat bacarıqları üzrə təlimlər verilir. Dövlətin dəstəyi ilə İcma Biznes Təbliğatçıları və Kənd Biznes Mütəxəssislərindən təşkil olunmuş dörd biznes inkubatoru yaradılıb və onlar sahədə marketinq araşdırması, uçot aparılması və maliyyə təhlili kimi biznes inkubasiya və inkişaf xidmətləri təklif edirlər. Kəndlərdə qadın qruplarına dəstək göstərmək məqsədilə təlim almış və yüksək biznes bacarıqlarına malik gənclərdən ibarət kadr heyəti yaradılır. Burada məqsəd kənd yerlərində məşğulluğun artırılması, əhalinin rifah halının yaxşılaşdırılması məqsədi ilə qadınların bütün təşəbbüslərini dəstəkləməkdir. Qadınlar şirniyyat evi açır, təndir, xalça toxuma sexi, dərzi dükanı, inkubator kimi biznes sahələriylə məşğul olurlar. Bu, qadınların iqtisadi gücünü artırır və onları iqtisadi asılılıqdan azad edir. Gender bərabərliyi üçün bu, çox vacib şərtdir.

*Qeyd edək ki, bir müddət əvvəl Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən Azərbaycan Kənd Qadınları Assosiasiyası üzvləri ilə videoformatda görüş keçirilmişdi. Görüş zamanı da kənd qadınlarının müdafiəsi, təminatı əsas müzakirə mövzusu olmuşdu. Komitə sədri Bahar Muradova qeyd etmişdi ki, ilk dəfə olaraq 2020-ci il dekabr ayında Dövlət Komitəsinin gender bərabərliyinin təmin edilməsinə dair həm Azərbaycan daxilində, həm də beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində fəaliyyəti haqqında hesabat hazırlanıb və Milli Məclisə təqdim edilib. Komitə fəaliyyəti dövründə qadınların, xüsusilə də kənd qadınlarının məşğulluğunun artırılmasında böyük işlər həyata keçirib, qadınlara dəstək olub. Hazırkı post-münaqişə dövründə də Komitə bu prosesi davam etdirəcək və qadınların işğaldan azad edilmiş ərazilərdə məşğulluğunun təmin edilməsi istiqamətində çalışacaq. Azərbaycan Kənd Qadınları Assosiasiyasının sədri Gülbəniz Qənbərova isə bildirib ki, ucqar kənd və qəsəbələrdə yaşayan qadınların fəaliyyət imkanları məhduddur. Buna baxmayaraq Dünya Bankı və Kənd Təsərrüfatı Nazirliyinin dəstəyi ilə reallaşdırılan Qadın İnkişaf və Müəssisə Qrupları layihəsinin yardımı ilə qadınların nəinki öz bizneslərinin, eləcə də öz icmalarının, regionlarının inkişafına töhfə verə bilirlər. O, həmçinin bu gün 15 rayonda fəaliyyət göstərən və 490 kənd qadınını birləşdirən 39(QİMQ yaradılmasının qadınların kollektivlərdə birləşərək öz vəsaitləri hesabına bizneslərini qurmasına imkan yaratdığını vurğulayıb.*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub




# Türkiyənin nəfəsini duyuruq

## TRT-1-in Azərbaycanda daimi yayımlanması önəmlidir

**Azərbaycan ərazisində TRT-1 televiziya kanalının yerüstü yayımının dayandırılması barədə məlumat verilib. Qeyd olunub ki, müraciətdə TRT-1-in Azərbaycan ərazisində kabel televiziya şəbəkələri və internet üzərindən yayımının kifayət etdiyi vurğulanıb.**

Bu baxımdan, yerüstü yayım üçün əlavə maliyyə vəsaitinin ayrılmasının məqsədəuyğun hesab olunmadığına görə, yayımın 2022-ci ildən etibarən dayandırılması xahiş edilib. Qeyd edək ki, TRT 1 televiziya kanalı 1995-ci ildən etibarən Azərbaycan və Türkiyə hökumətləri arasında imzalanmış müqavilə əsasında yayımlanır. Xatırladaq ki, aylar öncə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən bildirilmişdi ki, işğaldan azad edilmiş ərazilərdə Azərbaycan kanalları ilə yanaşı, Türkiyənin TRT1 kanalı da yayımlanacaq. Azərbaycan dövlət müstəqilliyini bərpa edəndən sonra ölkənin efir məkanında xüsusi maraqla qarşılanan xarici telekanallardan ən birincisi məhz TRT olub. Tariximiz, ənənələrimiz, dəyərlərimiz, o cümlədən Ermənistanın işğalçılıq siyasəti ötən dövrlərdə fasiləsiz olaraq telekanal tərəfindən işıqlandırılıb, erməni yalanlarını ifşa edib. Göstərilən qardaşlıq münasibəti 44 günlük Vətən müharibəsində bir daha özünü təsdiqləyib. Müharibə addım-addım kanalın efirindən dünya birliyinin diqqətinə çatdırılıb. Beynəlxalq aləmdə əhəmiyyətli nüfuza sahib TRT Azərbaycanda artıq çoxdandır milli kanal kimi qəbul olunmaqdadır. O baxımdan televiziya kanalının ölkəmizdə fasiləsiz yayımlanmasına hər zaman xüsusi önəm verilib.

**Əməkdar jurnalist, media mütəxəssisi, professor Qulu Məhərrəmli "Şərq"ə açıqlamasında vurğulayıb ki, TRT 1-in Azərbaycan televiziya məkanında yayımlanması məntiqli və qanunauyğundur.** Professorun sözlərinə görə, xüsusən İkinci Qarabağ savaşından sonra Türkiyə və Azərbaycanın dinamik inkişaf edən, ikitərəfli intensiv əlaqələri, təkcə dövlətlər deyil, xalqlarımız arasındakı tarixi, ənənəvi və mədəni yaxınlıq televiziya kanalları vasitəsi ilə fikir, məlumat mübadiləsini zəruri edir: "TRT 1 kanalının Azərbaycanda yerüstü yayımının dayandırılmasının səbəbi kimi maliyyə göstərilir. Əslində burada məntiq var. Məntiq odur ki, Azərbaycan kabel televiziyalarında, peyk yayımı ilə TRT-yə rahat baxa bilirik. Eyni zamanda internetdən izləyirik. Bu, istəyi olan insanlar üçündür. Kim istəsə kabel televiziyalarının təqdim etdiyi paketdə TRT kanalının da yer almasını təşkil edə bilər. Mənə elə gəlir ki, bu qərarda başqa səbəblərin olması mümkündür. Digər səbəb yeni "Media haqqında" qanunun qəbulu ilə bağlı ola bilər. Xarici televiziya kanallarının Azərbaycan teleməkanında yayımlanması ilə bağlı müəyyən şərtlər irəli sürülür. Təbii ki, bu şərtlər başqa dövlətlərlə bağlıdır. Neçə il bundan öncə Rusiya televiziya kanallarının Azərbaycanda yayımını dayandırmışıq və çox düz etmişik. İrana məxsus "Səhər" kanalının Azərbaycanda yayımının dayandırılması da doğru qərar idi. Görünür, Azərbaycan öz televiziya məkanını təmiz saxlamaq istəyir və çalışır ki, heç bir xarici kanal olmasın. Əlbəttə, xarici televiziya dedikdə, Türkiyənin TRT 1 kanalı istisna edilir. Amma hər halda bu mülahizələr də ağlabatandır. Şəxsən, hesab edirəm ki, TRT 1-in Azərbaycanda daim yayımlanması, Türkiyənin burada nəfəsini duymağımız çox önəmlidir. Bu, televiziya kanalları vasitəsi ilə mümkündür. Ona görə də adamların çoxu ölkədə TRT 1-ə baxır. Uşaqlar cizgi filmlərini daha çox həmin kanaldan izləyirlər. Bunlar mühüm şərtlərdir. Türkiyə ilə tarixi-ənənəvi dostluq və qardaşlıq münasibətlərini reallaşdırarkən bu məqamlara həssaslıqla yanaşmaq lazımdır".

**İsmayıl Qocayev**

# Koronadan sonra "Omikron" da gəldi

## Vüqar Cavadzadə: "Birində yoluxuculuq, digərində ölüm çox ola bilir"





**Bu barədə Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi birgə məlumat yayıb.**

Bildirilib ki, ölkəmizdə epidemioloji vəziyyətin nəzarətdə saxlanılması üçün görülən tədbirlər çərçivəsində virusun genetik variantlarına dair mütəmadi analizlər aparılır, ölkə üzrə peyvəndlənmə prosesi davam edir.

Koronavirusun mutasiyaları nəticəsində son zamanlar meydana çıxan yeni "Omikron" variantı bütün dünyada olduğu kimi Azərbaycanda da ciddi narahatlıq doğurur.

**Virusun aşkarlanması ilə bağlı "Şərq"ə açqlama verən infeksionist Vüqar Cavadzadə "Delta" ştammına və ya "Covid-19" virusunun özünə nisbətən "Omikron" ştammının yoluxuculuğunun təqribən 4 dəfə çox olduğunu bildirib:** "Bu xəstəlikdə ölüm halları "Covid-19", "Delta" və "Delta+" ştamlarına nisbətən azdır. Yəni digər ştamlar qədər öldürücü deyil. Təhlükəli tərəfi sadəcə ondan ibarətdir ki, yolxuculuq çoxdur. Qısa müddət ərzində çox sayda insanın yoluxmasına səbəb ola bilir. Buna görə də narahatlığa, insanların panikaya düşməsinə bir o qədər də əsas yoxdur.

Ancaq gələcəkdə uşaqlar arasında, orta yaş və yaşlı insanlar qrupunda arta və rəqəmlər indiki göstəricilərdən bir neçə dəfə çox ola bilər. Düşünürəm ki, sərt karantin tədbirlərini tətbiq etməyə lüzum olmayacaq. Müəyyən lokal qapanmalar ola bilər. Ancaq tam qapanma, SMS icazə və s. olacağını hesab etmirəm".

**İnfeksionist eyni zamanda bildirib ki, "Omikron" ştammını aşkar etmək üçün ayrıca bir müayinə üsulu lazım deyil:** "Bu hamımızın bildiyi Polimeralı Zəncirvari Reaksiya (PZR) vasitəsilə aşkar edilir. Sadəcə ola bilsin ki, orada ayrı-ayrı reaktivlərdən və başqa elementlərdən istifadə olunur".

**Vüqar Cavadzadə ÜST-nin cari ilin mart ayında pandemiyanın tamamilə bitəcəyi ehtimalı ilə bağlı açıqlamasına münasibət bildirərkən qeyd edib ki, pandemik infeksiyalara əvvəlcədən proqnoz verməyi düzgün deyil:**

"Ümumdünya Səhiyyə Təşkilatı bir neçə dəfə də belə proqnoz vermişdi. Ancaq deyilənlər tamamilə əksinə oldu. Bundan sonra da yeni variantlar əmələ gələcək. Bu, virusların bioloji xüsusiyyətləridir. Yeni ştamlar əmələ gəlir. Birində yoluxuculuq, digərində ölüm çox ola bilir. Bu, həmin virusların mutasiyasından asılıdır. Bu cür proqnozlar tibb aləmində özünü doğrultmur"- deyə infeksionist bildirib.

**Sənan İsmayıl**



# Rusiya açıq şəkildə Qazaxıstanı işğal edib

## Qafar Çaxmaqlı: "Türkiyə müstəqil şəkildə Qazaxıstandakı proseslərə daxil olmalıdır"

**"Qazaxıstandakı hadisələrin adını düzgün qoymaq lazımdır. Bu, açıq-aşkar işğaldır". Bunu "Şərq"ə açıqlamasında Türkiyənin Ərciyəs Universitetinin professoru Qafar Çaxmaqlı deyib.**

Professor bildirib ki, bu, əvvəlcədən planlaşdırılmış bir layihə idi: "İndi işğalın necə sonlandırılacağı və rus qoşunlarının ölkədən çıxarılması tədbirlərinə baxılmalıdır. Yanvarın 11-də Türk Dövlətləri Təşkilatının gecikmə ilə keçirdiyi toplantıda Qazaxıstan xalqına dəstək ifadə olundu. Bəyanatdan önə keçməyən bu dəstək elə də effektli deyil. Türkiyə XİN rəhbərinin dediyi kimi "Qazaxıstan oturuşmamış qurumdan yardım istədiyi təqdirdə hansısa müdaxilə ola bilərdi". Müraciəti ölkə rəhbəri etməlidir. Tokayev artıq seçimini Rusiyadan yana etdiyindən TDT-nin edəcəyi bir şey qalmamışdı. Rusiya açıq şəkildə Qazaxıstanı işğal etməkdədir. ABŞ dövlət katibi Blinkenin sözləri ilə desək, "Rusiya girdiyi yerdən çıxmır". Onu Qazaxıstandan yalnız güc yolu ilə çıxarmaq mümkündür. TDT-nin indiki halda belə bir gücü yoxdur. Rusiya Qazaxıstanı parçalamaq planını hazırlamaqla məşğul olacaq. Bu planı pozmaq üçün yeganə silah Qazax xalqının dirənişidir".

Q.Çaxmaqlıya görə, Türkiyə müstəqil şəkildə Qazaxıstandakı proseslərə daxil olmalıdır: "Əks halda Rusiya gərginliyi artıracaq və Qazax torpaqlarının şimal hissəsini birləşdirmək tədbirlərini işə salacaq. Artıq Rusiya-Belarusun vahid dövlətdə birləşdirilməsi planı işə düşüb. Qazaxıstan rəhbərliyini də seçim qarşısında qoyacaqlar. Bu fikri Lukaşenko artıq səsləndirib. Qazaxıstan ya bu ittifaqa birləşdiriləcək, ya da bölünəcək. Rusların yaşadıqları ərazilərdə Rusiyanın ikinci "Donbass variantı" işə düşəcək. "Vahid dövlət"də birləşmək ideyası Rusiyanın keçmiş SSRİ-ni bərpa etmək anlayışıdır. Zamanla digər müstəqil ölkələrə də əl atacaqlar. Növbədə ehtimal ki, Özbəkistandır. Rusiya öz imperial maraqlarını Mərkəzi Asiyada davam etdirməkdədir. Ermənistanda da "vahid dövlət"lə bağlı müzakirələr gedir. Amma "vahid dövlət" fikri Rusiyaya qarşı çox böyük beynəlxalq təpkiyə yol açacaq. Moskva Qazaxıstanda öldürücü zərbə ala bilər. Rusiyanın işğal doktrinası onun özünün dağılmasına səbəb olar. Keçmiş SSRİ kimi...".

**İsmayıl Qocayev**

# Ayda 300 min manat dövriyyə olunur

## Pullar kimlərin cibinə gedir, məlum deyil




**Paytaxt Bakının küçələrində sürücülərin tez-tez rast gəldiyi hallardan biri də parklanma ilə bağlı qanunsuz ödənişlərin tələb olunmasıdır.**

Bu kimi əməliyyatlar özlərini "parkovşik" adlandıran şəxslər tərəfindən həyata keçirilir. Maşını park edərkən, özlərini "parkovşik" adlandıran şəxslər bu xidmətə görə pul tələb edirlər. Bəzi sürücülər isə "Bu dəstələrin başında kim durur? Yığılan pullar kimin cibinə gedir?" kimi haqlı suallar ünvanlayırlar.

**Biz də suallara cavab tapmaq məqsədilə nəqliyyat üzrə ekspert Elməddin Muradlı ilə əlaqə saxladıq. O, "Şərq"ə bildirdi ki, hazırda parklanma ilə bağlı Bakı şəhərində, eləcə də respublikanın digər ərazilərində xaotik vəziyyət hökm sürməkdədir:**

"Çünki birincisi, küçələr boydan-boya "dayanmaq qadağandır" nişanları ilə "bəzənib". İnsanlar artıq parklanma üçün normal yer tapanda sevinirlər. İkinci problem isə qanunsuz olaraq vətəndaşlardan pul tələb olunmasıdır. Bununla bağlı dəfələrlə müzakirələr aparılıb. Bakı Nəqliyyat Agentliyi açıqlama verib ki, hazırda tariflər müəyyən edilmədiyi üçün parklanma ödənişsizdir".

**Ekspert qanunsuz ödnişləri tələb edən insan və qurumlardan söz açıb:**

***"Reallıqları nəzərə alaraq dövlət parklanma qiymətlərini normal şəraitdə və müəyyən şərtlər daxilində açıqlamalıdır"***

"Bəzi işbazlar, xüsusilə də "ASA parkinq" , "Çinar parkinq MMC" kimi qurumlar və özünü Qarabağ əlili kimi təqdim edən şəxslər parkinq ərazilərində qanunsuz pul yığımı ilə məşğul olurlar. Bakı şəhərində təxminən 600-ə yaxın belə parkinq yerləri var. Bunların hər birindən gündə pul yığırlar. Mənim hesablamalarıma əsasən, ay ərzində ümumi 300 min manata yaxın qanunsuz və heç bir vergisi olmadan pul dövriyyə edir.

"Çinar MMC" keçmiş polis rəisi Nizami Qocayeva məxsusdur. Bələdiyyə kağızı ilə iş görür və öz açıqlamasına əsasən, qanuni işləyir. Bələdiyyənin burada hansı səlahiyyəti olduğu, hansı ixtiyarla parklanma üçün sərəncam verdiyi müəmmalı məsələdir. BNA-nın və Yol Polisinin səlahiyyətində olan məsələyə bələdiyyə müdaxilə edir. Bunu araşdırmaq lazımdır. "ASA parkinq" Bakı şəhər İcra Hakimiyyətinin xüsusi təyinatlı avto-nəqliyyat idarəsinin keçmiş işçilərindən bu işdə istifadə edir. Əvvəllər parklanmaya onlar nəzarət edirdi. Bu qurumun səlahiyyəti əlindən alınıb BNA-ya verildikdən sonra, buradakı əməkdaşların əksəriyyəti "ASA parkinq"in nəzarətinə keçib. Onlar parklanma yerlərindəki yaranmış boşluqdan istifadə edib, pul qazanırlar".

**E.Muradlı hansı qurumların burada söz sahibi ola biləcəyinə də toxunub:**

"Beləliklə qəribə bir mənzərə yaranır. Hətta sürücüləri cərimə yazmaqla hədələyirlər. Bununla bağlı BNA mülki bir təşkilat olduğuna görə heç bir iş görə bilmir. Polisin müdaxiləsi lazımdır. Eyni zamanda, daxili işlər orqanları, prokurorluq orqanları, vergi xidmətləri müdaxilə edə bilər. Bu sahədə qayda-qanun yaratmağa ehtiyac var. Nazirlər Kabineti parklanma ilə bağlı tarifləri müəyyənləşdirəcək. Düşünürəm ki, bugünkü reallıqları nəzərə alaraq dövlət parklanma qiymətlərini normal şəraitdə və müəyyən şərtlər daxilində açıqlamalıdır".

*Məsələ ilə bağlı Bakı Nəqliyyat Agentliyindən münasibət öyrənməyə çalışsaq da, zənglərimiz cavabsız qaldı.*

**Çimnaz ŞAHLAR**

# Azərbaycanda quşlar elektrik cərəyanından qorunacaq

### Elektrik dayaqlarına xüsusi qurğular quraşdırılır



**Azərbaycanda quşların hava elektrik verilişi xətlərinə toxunması nəticəsində yaralanması və məhv olmasının qarşısını almaq, eləcə də həmin xətləri qorumaq məqsədi ilə elektrik dayaqlarına xüsusi qurğular quraşdırılır.**

"Azərenerji" ASC-dən "Şərq"ə verilən məlumata görə, IDEA İctimai Birliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin dəstəyi ilə həyata keçirilən layihə çərçivəsində ilkin olaraq quşların ən çox tələf olduğu müşahidə edilən Goranboy, Yevlax, Bərdə, Ağcabədi, Salyan, Masallı və Ucar rayonlarının ərazisindən keçən hava xətlərində polimer materialdan hazırlanmış xüsusi konus tipli qurğular quraşdırılacaq. Növbəti mərhələdə bu cür qurğuların ölkənin digər rayonlarında da quraşdırılması nəzərdə tutulur: "Qeyd edilməlidir ki, təbii arealın itirilməsi, qanunsuz ovlanma və zəhərlənmə ilə yanaşı, elektrik xətləri ilə təmas quşların məhv olmasının əsas səbəblərindən biridir. Quşlar uçarkən və ya təhlükəli dirəklərə enərkən çox vaxt naqillərə toxunur və bəzən elektrik cərəyanı ilə vurulur. Azərbaycanda quşların elektrik cərəyanı ilə vurulması və bununla bağlı xətlərdə qəza açılmaları halları əsasən ağaclar olmayan ərazilərdə quşların mövsümi miqrasiyası zamanı 110-330 kV-luq elektrik verilişi xətlərində müşahidə olunur. Təəssüf ki, elektrik cərəyanı vurması halları çox vaxtlar məhz iri quşlar, o cümlədən Azərbaycanın Qırmızı Kitabına daxil olan yırtıcı quşlar arasında baş verir".

**İsmayıl**

Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu
KURSLAR
-MÜHASİBAT (2 AY)
-Mobil telefonların təmiri (3 ay)
-KOMPYUTER (1-3 AY)
-KOSMETOLOGİYA və VİZAj (3 AY)
-KİŞİ və QADIN BƏRBƏRİ (1-3 ay)
-Dizayn (3-6ay)
-Masaj (3 ay)
-Biçmə - Tikiş (3 ay)
-Məktəb Psixologiyası (12 ay)
Tel: (012) 489-08-84
Mob: (070) 241-28-67
www.az-baku.com

# Gürcüstan yolların açılmasına daha çox maraqlıdır

## Bakı-Tbilisi dəmir yolunun bərpası əslində gecikmiş bir addım sayıla bilər




**Gürcüstan Azərbaycanla dəmir yolu vasitəsilə sərnişin daşımalarının bərpası istiqamətində danışıqları davam etdirir.**

Bu barədə "Gürcüstan Dəmir Yolları" SC-nin Baş direktoru David Peradze "Forbes" jurnalına müsahibəsində bildirib.

O deyib ki, Bakı və Tbilisi arasında qatar reyslərinin bərpasının dəqiq vaxtı daha sonra açıqlanacaq.

**Gürcüstan tərəfinin açıqlamasını "Şərq"ə dəyərləndirən iqtisadçı Pərviz Heydərovun sözlərinə görə, dəmir yolunun açılması prosesi labüddür, hətta gecikdirilib:** "2021-ci il ərzində bütün dünya ölkələri kimi Azərbaycan da iqtisadiyyatın bütün sahələri üzrə post-pandemiya dövrünə daxil olmağa başladı. Və bununla əlaqədar olaraq pandemiya dövründə iqtisadiyyatın hansı sahələrində məhdudiyyətlər tətbiq edilmişdisə, onlar mərhələli şəkildə aradan götürülməyə başlandı. Bakı-Tbilisi dəmir yolunun da pandemiyadan əvvəlki dövrdəki kimi işlək vəziyyətə qaytarılması indi reallaşdırılmaq istənilirsə, burada təhlükəli hesab ediləcək heç bir məqam yoxdur. Əslində bütün digər sahələrdə, o cümlədən, nəqliyyat sektorunda da post-pandemiya dövrünə daxil olduğumuz üçün hərəkət bərpa edilir. Bakı-Tbilisi dəmir yolunun da bərpası əslində gecikmiş bir addım sayıla bilər. Ona görə də burada qeyri-adi heç nə görmürəm. Dəmir yolunun bərpası real məsələdir".

**İqtisadçı həmçinin dəmir yolunun bərpasının hər iki ölkənin iqtisadiyyatına xeyir gətirəcəyini bildirib:**

"Əvvəllər burada hər iki tərəf qarşılıqlı səmərə götürürdü. Xüsusən Gürcüstan tərəfi burada daha çox maraqlı olmalıdır. Çünki ortada həm də Bakı-Tbilisi-Qars dəmir yolu da var. Hansı ki buradan yükdaşımalar həyata keçirilməkdədir. Bu yol da nəqliyyatın digər bir qovşağı kimi fəaliyyətini bərpa edərsə, bu, hər iki ölkənin iqtisadiyyatına əlavə xeyir gətirəcək".

**Sənan İsmayıl**

# "Uzunillik fəaliyyətə görə verilmir... "

## Nazirlik "Xalq artisti" fəxri adı istəyən müğənnilərə cavab verib



**Əməkdar artist, müğənni Cavanşir Məmmədov "Xalq artisti" fəxri adı istəyir. Sənətçi "Şərq"ə açıqlamasında fəxri ada layiq görülməməsindən danışıb:**

"Nazirliklərdə rütbəni 3-5 il arasında verilir. Niyə mən 17 ildir ki, əməkdar artist adını daşıyıram? Peşman olublarsa, geri qaytarsınlar. Ulu Öndərin təqdimatında səhnəyə gəlmişəm. Şəkillərim, sənədlərim var. Bəyənirlərsə, niyə ad vermirlər? Cənab nazirdən aslı deyil. O təzə gəlib. Yəqin, xətrimi çox istəyir. Elə xalq artistləri var ki, Moskvadan o tərəf ə keçməyiblər. Bu, necə olur? 18 yaşımdan səhnədəyəm, xidmət etmişəm, öz haqqımı istəyirəm. Bəlkə, səhnə mədəniyyətim zəifdir? 151 mahnı oxumuşam, 121-i bəstəkar mahnısıdır. Azərbaycan muğamlarını, bəstəkar və estrada musiqilərimizi barmağım kimi bilirəm. Həm xalq, həm də estrada musiqilərindən xəbərdar olan yeganə müğənniyəm".

**Müğənniyə xalq artisti fəxri adının verilməsi ilə bağlı Mədəniyyət Nazirliyi ilə əlaqə saxladıq. Nazirliyin "İncəsənət və qeyri-maddi mədəni irs" şöbəsindən sualımıza cavab olaraq bildirdilər:**

"Azərbaycan Respublikası Prezidentinin 14 may 1999-cu il tarixli 130 nömrəli fərmanı ilə təsdiq olunmuş Azərbaycan Respublikasının fəxri adları haqqında Əsasnaməsinə əsasən mədəniyyətimizin inkişafında xidmətləri olan incəsənət xadimlərinə fəxri adlar yaş həddinə, yaxud uzunillik fəaliyyətə görə deyil, milli mədəniyyətimiz qarşısında müstəsna xidmətlərinə, çalışdığı sahənin inkişafında əldə etdiyi uğurlara görə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı əsasında verilir".

**Aygün Tahir**



# "Gallendvagen" sürücüsü kasıbları təhqir etdi

## DİN ilə hadisə ilə bağlı bağlı araşdırmaya başladı

**Daxili İşlər Nazirliyi (DIN) Bakıda aztəminatlı ailələri təhqir edərək küçədə yüksək sürətlə hərəkət edən "Gallendvagen" sürücüsü ilə bağlı araşdırmalara başlayıb.**

Bu barədə Trend-in sorğusuna cavab olaraq nazirliyin mətbuat xidmətinin şöbə rəisi, polis mayoru Elşad Hacıyev deyib. O bildirib ki, hazırda həmin avtomobilin müəyyən edilərək saxlanılması ilə bağlı araşdırmalar aparılır. Araşdırmalardan sonra sürücü barədə qanunamüvafiq qaydada tədbir görüləcək. Xatırladaq ki, sosial şəbəkələrdə Bakıda "Gallendvagen" idarə edən şəxsin aztəminatlı şəxsləri təhqir etməsi barədə video yayılıb. Sürətlə avtomobil idarə edən şəxs ətrafdakılara təhqiredici ifadələr işlədib: "Çəkil, yetim kasıb, bədbəxt, səhər yeməyi yeməyib günorta yeməyinə duran adamlar. Dağılışın!".

*Görüntülərdə həmin şəxsin təhlükəsizlik kəmərindən istifadə etmədiyi və avtomobili yüksək sürətlə idarə etdiyi görünür.*




# Bakıda əhali ticarət şəbəkələrində 21 milyard manatdan çox pul xərcləyib

**2021-ci ilin yanvar-noyabr aylarında Bakıda ticarət dövriyyəsinin həcmi 2020-ci ilin yanvar-noyabr ayları ilə müqayisədə 5,3 faiz artaraq 21 milyard 478,4 milyon manat olub.**

Bakı Şəhər Statistika İdarəsindən Trend-ə verilən məlumata görə, ticarət şəbəkəsində satılmış ərzaq məhsulları, içkilər və tütün məmulatlarının dəyəri əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 5,6 faiz artaraq 11 milyard 059,0 milyon manata, qeyri-ərzaq məhsullarının həcmi isə 5,2 faiz artaraq 10 milyard 419,4 milyon manata bərabər olub.

*İstehlak məhsullarının 36,0 faizi hüquqi şəxs statuslu müəssisələrdə, 44,8 faizi fərdi sahibkarlara məxsus ticarət obyektlərində, 19,2 faizi isə paytaxtın məhsul bazarlarında satılıb.*

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 92



## Türkiyənin ANKA PUA-sı 30 saat havada qalaraq rekord vurub

**Türkiyə istehsalı olan Pilotsuz Uçuş Aparatı ANKA yeni bir rekorda imza atıb.**

APA-nın xəbərinə görə, bu barədə məlumatı Türk Aerokosmik Sənayesi (TUSAŞ) yayıb.

*Qeyd olunub ki, sözügedən PUA bir tapşırıq uçuşu zamanı 30 saat 30 dəqiqə havada qalıb.*

## Ölənlərin 4-ü tələbədir

### Qəzanın bəzi məqamları aydınlaşıb



**Türkiyədə Çanaqqalanın Biga əyalətində 5 nəfərin öldüyü qəza ilə bağlı bəzi məqamlar aydınlaşıb.**

Türkiyə mediasında yer alan xəbərlərdə bildirilir ki, qəzaya uğrayan TIR sürücüsü 48 yaşlı Taha Kurtoğlu ifadəsində bunları söyləyib: "Əsas yola çıxdığım vaxt sol aynadan bir avtomobilin işığını gördüm. Maşını sağa "qaçırmağa" çalışdım, amma avtomobil anidən TIR-a çırpıldı".

Qəza Biga-Çanaqqala yolunun 15-ci kilometrində, Balıqlıçeşmə kəndi yaxınlığında baş verib. Çanaqqaladan Bigaya gedən Birkan Gugulun idarə etdiyi avtomobil yanacaqdoldurma məntəqəsindən çıxan TIR-a çırpılıb. TIR da baryerlərə. Avtomobilin yüksək sürətlə hərəkət etdiyi təsbit edilib. Qəzaya uğramış avtomobilin spidometri saatda 230-u göstərirmiş. Avtomobildən geriyə dəmir yığını qalıb. Sürücü ilə birlikdə 5 nəfər də həyatını faciəli şəkildə itirib. Həlak olanlardan 4-ü 20-28 yaşlı gənclərdir. Ölənlərdən biri Türkiyə İYİ Partiyanın Gümüşçay Bəldə Bələdiyyə Məclisi üzvlərindən birinin oğlu, digərləri isə tələbələrdir.

**Məlahət**





Ülkemizin İlk Kadın İnşaat Mühendisi
Sabiha RIFAT GÜRAYMAN
Mezuniyetinin 58. Yılında

*Ülkemizin ilk kadın İnşaat Mühendisi Sabiha Rıfat, Türk kadınını gerek öğrencilik yıllarında gerekse meslek yaşantısında büyük başarı ile temsil etmiş bir İTÜ'lü.*

*Atatürk'ün emri ile Mühendis Mektebi'ne kız öğrenci alınacağını son anda öğrenerek kaydını yaptıran Sabiha Rıfat, Türkiye'nin ilk kadın İnşaat Mühendisi olma onurunun yanısıra, birçok binaya, okula, köprüye imzasını atmış, meslek yaşantısının en önemli eseri olarak kabul ettiği Anıtkabir'in inşasında ise 10 yıl başkontrolör olarak çalışmış.*

Röportaj: Hasan YAZICI

# Dünyanı heyrətə salan türk qadını

## Sabiha Rifat "ilk"lərlə adını tarixə yazdı

**Məlahət Rzayeva**

**Mühəndislik məktəbinin ilk qadın tələbəsi Sabiha Rifat Gürayman qadınların adı belə çəkilməyən dönəmdə, Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün əbədi uyuduğu Anıtqəbirdə ilk qadın, həm də baş mühəndis olaraq çalışıb, üstəlik "Fənərbaxça" kişi voleybol komandasının kapitanı olub. Bəli. Doğru duydunuz: məhz kişilərdən ibarət komandanın! "Şərq" dünyanı heyrətə salan işlərə imza atmış türk qadınının həyat hekayəsini "Milliyet.com.tr"yə istinadən oxuculara təqdim edir.**

Qadın və ilklər, dedikdə, ilk yada düşən də o olur - Sabiha Rıfat Gürayman! Sabiha Rıfat Türkiyə tarixinin cəsur, qol qoyduğu işlərdə birmənalı müvəffəqiyyət qazanan qadınlarındandı. Sabiha Rıfat 1910-cu ildə Makedoniyada dünyaya gəlib. Atası hərbçi olub. İbtidai təhsilini Beşiktaş Esma Sultan ibtidai təhsil məktəbində, orta sinif təhsilini isə Nişantaşı Qız Məktəbində alıb. Sonra isə təhsilini İstanbul Qızlar Liseyində davam etdirib. Bu, 1927-ci illər idi. O zaman Atatürk qız uşaqlarının təhsilə təşviq edilməsinə çalışırdı. Məhz 1927-ci ildə Atatürk hazırda İstanbul Texniki Universiteti olaraq tanınan Mühəndis Məktəbinə qız tələbələrin də qəbul edilməsini təklif etmişdi. Sabiha Rifat da rəfiqəsi Mələk Ertuğ ilə imtahanlara qatılır və məktəbə daxil olur. 350 oğlan tələbənin təhsil aldığı məktəbdə cəmi 2 qız tələbə olur - Sabiha və Mələk. Asan deyildi. Məktəbdə çox zaman psixoloji basqılara məruz qalırdılar. Amma qızlar dirəniş göstərirdi. Təhsil almaqla yanaşı Sabiha idmana da maraq göstərir və voleybol oynayırmış. Voleybolda bacarıqlı olduğuna görə onu komandaya qəbul edirlər. Lakin bu, oğlanlardan ibarət komanda idi. O zaman Türkiyədə qadın voleybol komandası yox idi. Burda da bəzən təzyiqlərə, oğlanların yersiz atmacalarına məruz qalsa da, oyuna köklənib. İş o yerə çatdı ki, Sabiha kişi voleybol komandasının kapitanı seçilib. 1929-cu ildə "Fənərbaxça" voleybol komandası İstanbul çempionu adını qazananda komandanın kapitanı məhz Sabiha Rıfat idi. 1933-cü ildə Mühəndis Məktəbindən məzun olub. Və Ankara bandırlıq Baş Mühəndisliyinə təyinat alıb. Sabiha Rıfat Yüksək Mühəndis Məktəbinin nümunəvi məzunu olaraq şəhər kənarındakı layihələr üzrə işə cəlb edilir. Və Ankaradakı bir körpü tikintisində çalışmağa başlayır. İşlədiyi yerin - Bəybazarı Köyünün əhalisi onu çox sevdi, körpünün tikintisi tamamlandıqda körpüyə "Qız Körpüsü" adı verildi. 1939-cu ildə Rəmzi Güraymanla ailə qurdu. 1941-ci ildə Türkiyə Böyük Millət Məclisi inşaatlarının nəzarət müdiri oldu. Məsləyində uğur pillələrini bir-bir qalxmağa başladı. 35 yaşında Anıtqəbir İnşaatı baş mühəndisi oldu. Bu vəzifədə 10 il çalışdı. Sabiha Rıfat Atatürkün qız uşaqlarının təhsilinə açdığı yolda addımlamışdı. Həyatda əldə etdiyi uğurlara görə Atatürkə borclu idi. Millət atasına vəfa borcunu onun Anıtqəbirində çalışmaqla ödədi. Anıtqəbir inşaatında bir qadının baş mühəndis olaraq çalışması dünyanı heyrətə saldı. O zaman Anıtqəbiri ziyarət edən Yunanıstan baş naziri Venizelos Sabiha Rıfata "ilk dəfədir ki, belə bir məsuliyyətli işin başında qadın görürəm. Sizi ürəkdən təbrik edirəm", söyləyib. Onun sonuncu iş yeri Milli Təhsil Bakanlığında Texniki müşavirlik heyətində üzvlük olub. 1963-cü ildə təqaüdə çıxıb. Sabiha Rıfat Gürayman 2003-cü ildə 93 yaşında vəfat edib.



Sabiha RIFAT, Prof. Orhan ARDA (solda) ve Y.Müh. Osman AKMAN




Sabiha Hanım'ın Mühendis Mektebi'ndeki Kaydı (İTÜ ARŞİVİ)

## Bir ilk yaşandı

### İnsana donuz ürəyi köçürüldü



**ABŞ-da insana geni dəyişdirilmiş donuz ürəyi köçürülüb.**

**"The New York Times"a xəbər verir ki, bu, donuz ürəyinin insana ilk uğurlu transplantasiyasıdır.**

**Əməliyyat yanvarın 7-də 57 yaşlı Daeid Bennett üzərində aparılıb. 8 saat davam edən əməliyyatın ardından donuz ürəyi xəstəyə köçürülüb.**

**Merilend Universiteti Tibb Mərkəzinin həkimlərinə görə, Devid hələ də ürək-ağciyər aparatına bağlıdır və onun bədəni ən təhlükəli 48 saat ərzində donor ürəyi rədd etməyib. Bununla yanaşı artıq yeni ürək öz funksiyasının çoxunu yerinə yetirir.**

***Qeyd edək ki, təhlükəli ürək xəstəliyindən əziyyət çəkən Devid üçün bu orqan transplantasiyası son şans olub.***

## Parisdə "Karikatura Evi" açılacaq



**Fransanın paytaxtı Parisdə qəzet və jurnallarında dərc edilmiş ən uğurlu karikaturaların toplanacağı "Mətbuat Krikaturaları Evi" yaradılacaq. "Report" "Le Monde"yə istinadən xəbər verir ki, bununla bağlı Prezident Emmanuel Makron qərar verib.**

**Bu təşəbbüs 2020-ci ildə ortaya çıxıb. Ötən ilin sentyabr ayında isə Mədəniyyət Nazirliyi bu layihə üçün 2 milyon avro ayırıb.**

**Qeyd edilir ki, Parislə yanaşı, "Karikatura Evi"nə ev sahibliyi etmək üçün Strasburq, Limoj, Bordo şəhərləri də iddialı olublar.**

## 17-ci əsrin orijinalıdır

### 88 dollara aldığı tablo on minlərlə dollarlıq əsər çıxdı



**Londonda bir sənət tarixçisi Kristofer Raytın 88 dollara (təqribən 150 manat) aldığı əsərin 17-ci əsrin orijinalı olduğu ortaya çıxıb.**

**Oxu.az xəbər verir ki, məlum olub ki, tablo məşhur Flamand rəssamı Entoni van Deykin şah əseridir və azı 54 min dollar (91 800 manat) dəyərindədir.**

**Rayt kətanın Van Deykin rəsminin surəti olduğunu düşünübmüş. O, rəsmi ikinci rəy üçün Oksforddakı Aşmola Muzeyinin Avropa incəsənəti üzrə baş kuratoru Kolin Harrisona aparıb.O da bunun Van Deykin əsəri olduğunu irəli sürüb.**

**Londondakı Kurto İncəsənət İnstitutu Harristonun sözlərini təsdiqləyib.**



# Varidatını bir az da zənginləşdirib

## Paris Hilton əyləşdiyi yerdəcə pul qazanmağın yolunu tapıb

**Dünyanın ən zəngin varisi Paris Hilton varidatını bir az da zənginləşdirib. Özünün təşkil etdiyi "Paris World" vizual əyləncə adasında Yeni İl gecəsi partisi düzənləyən məşhur xanım bu partidən 700 min dollar əldə edib.**

Pandemiya dönəmində əyləncə mərkəzləri, canlı görüşlər, partilər, təqdimat mərasimlərdən uzaq durmaq məcburiyyətndə qalan Paris Hilton necə deyərlər, əyləşdiyi yerdəcə pul qazanmağın yolunu tapıb. Bir il boyunca "Paris World" vizual əyləncə adası layihəsi üzərində çalışıb. Yeni İl öncəsi layihəni vizual olaraq təqdim edib və parti düzənləyib. "Milliyet.com" yazır ki, "Daily Mail" qəzetinin əməkdaşı Tali Fraser partiyə onlayn qatılıb. Parti 2 ay əvvəl Paris Hiltonun toyunun baş tutduğu Beverly Hillsdəki malikanəsi və Santa-Monica qalasının vizual versiyası fonunda gerçəkləşib. Belə görüntü partiyə hədsiz maraq oyadıb. Partiyə onlayn qatılanlar hesabına da məşhur xanım 700 dollar gəlir əldə edib. Realda isə Paris Hilton hələ də Maldiv adalarındadır. Və ötən ilin fevralında rəsmi nikaha daxil olduğu biznesmen Carter Reumla birgədir. Nişanlısının toy öncəsi Parisə hədiyyə etdiyi 2 milyon dollarlıq almaz üzük isə hələ də müzakirə predmetidir. Bir ilə yaxındır evl olsa da, Paris Hilton hələ də subaylığa vida partiləri də keçirir.

**Məlahət**

## Əfsanəvi aktrisanın həyatı film olacaq

**Hollivudun əfsanəvi aktrisalarından biri Odri Hepbernin həyatından bəhs edən filmdə çəkiləcək.**



Axşam.az xəbər verir ki, ekran işində Odrini aktrisa Runi Mara canlandıracaq. Onun bu rolu ifa etməsinə mərhum aktrisanın oğlu Şon Hepber də öz razılığını verib.

Filmin rejissoru Luka Quadaqnino, ssenaristi Maykl Mitnik, prodüseri isə Runi özü olacaq.

*Qeyd edək ki, "Roma tətilləri" filmi ilə məşhurlaşan Odri 63 yaşında xərçəng xəstəliyindən vəfat edib. O, "Emmi", "Oskar", "Toni" və "Qremmi" mükafatlarını alaraq "EGOT" statusu qazanan ilk aktrisa olub.*

## Yaxın həftələrdə

### Avropa əhalisinin 50 faizi "omikron" ştammına yoluxacaq



**Bu sürətlə davam edəcəyi təqdirdə yaxın 6-8 həftə ərzində Avropa əhalisinin 50 faizi koronavirusun "omikron" ştammına yoluxacaq.**

Bunu Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) Avropa regional bürosunun rəhbəri Hans Klüge deyib. O bildirib ki, regionun 53 ölkəsindən 50-də "omikron" ştammı qeydə alınıb.

"2022-ci ilin birinci həftəsində regionda 7 milyon yeni yoluxma qeydə alınıb. Bu, əvvəlki həftə ilə müqayisədə iki dəfə çoxdur. Qərbi Avropada və Balkanlarda bu ştamm dominant olmağa başlayıb. Bu tempdə davam edəcəyi təqdirdə 6-8 həftə ərzində Avropa əhalisinin 50 faizi "omikron" ştammına yoluxacaq", - deyə o bildirib.

**Cəmilə**

## Rəqqas və müğənni olub

### Kim Çen həyat yoldaşının keçmişini hər yerdən sildirməyə çalışır



**Şimali Koreya lideri Kim Çenin nadir görülən həyat yoldaşı Ri Sol-junun evlilikdən əvvəl işlədiyi peşə ilə bağlı dünya mətbuatında yeni iddia ortaya çıxıb.**

"Şərq" "HaberTürk"ə istinadən xəbər verir ki, ginekoloq ana və professor atanın qızı Ri Sol-ju evlənməzdən əvvəl rəqqas və müğənni olub.

İddialara görə, Ri Sol-Ju keçmişdə 2005-ci ildə Şimali Koreyanın Asiya Atletika Çempionatı üçün şənlik komandasının rəqqası kimi Cənubi Koreyaya səfər edib.

Ənənəvi Koreya mahnılarının yer aldığı "Unhasu" orkestrində müğənni olan Ri Sol-Ju konsertdə olarkən Kimin diqqətini çəkdiyi bildirilib.

Şimali Koreya hakimiyyəti indi onun konsertlərinin görüntülərini ehtiva edə biləcək bütün şəkilləri və CD-ləri müsadirə etməklə ölkənin birinci xanımının keçmişini silməyə çalışır.

**Cəmilə**